

**Nur və şəfqətlə dolu ziyalı ömrü - ZƏRİFƏ XANIM ƏLİYEVA**

4

# Zəfər Qurultayı 44 günlük Vətən müharibəsinin zəfər payıdır

3



*"Bu gün vəziyyət tam başqadır. Bu gün alnımız açıqdır, üzümüz gülür, başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq. Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq.*

Səs
№ 074 (6515) 28 aprel 2022-ci il. Qiymәti 60 qәpik

# Rusiya III Dünya savaşına hazırlaşır

6



## Şuşa 24 saat içməli su ilə təmin olunacaq




## Rusiyada yaşayan azərbaycanlılara şad xəbər - Bu hüquqları tanınacaq



## Andrey Fyodorov: "Sülh prosesində əsas məsələ Azərbaycanın ərazi bütövlüyünün tanınmasıdır"

15



Fransa və ABŞ-ın imtina etməsindən sonra Rusiyanın Qarabağ nizamlanması, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsini niyə Qərblə müzakirə etməsi, Moskvanın Qərblə bu istiqamətdə əməkdaşlıq etməsi, Rusiya Xarici İşlər Nazirliyinin...

## Dünya üçün uğurlu model - Azərbaycan multikulturalizmi

5



*Azərbaycan müstəqillik illərində dövlət dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində çox mühüm və ciddi addımlar atıb. Müxtəlif dini mənsubiyyətə malik insanlar cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərlərində hiss edirlər.*

## "Azərbaycanın regionda yaratdığı reallıq qarşısında Ermənistan sülh müqaviləsini imzalamağa məcburdur"

10



Azərbaycanın regionda yaratdığı yeni reallıq davamlı sülhün əsasıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bütün çıxışlarında da qeyd etdiyi kimi, ölkəmizin artıq 5 prinsipdən ibarət sülh təklifi...

16

## Dünyada ilk: H3N8 insanda aşkarlandı!

Çində H3N8 quş qripinə insanın ilk yoluxma hadisəsi qeydə alınıb. Trend-in məlumatına görə, bu barədə "BNO News" informasiya agentliyi Çin Milli Səhiyyə...



# Benzema bunu bacaran ilk futbolçu oldu



*Madrid "Real"ının ulduz futbolçusu Kərim Benzema UEFA Çempionlar Liqasında yeni rekorda imza atıb. Qol.az xəbər verir ki, fransalı hücumçu "Mançester Siti"yə yarımfinalda "Mançester Siti"yə uduzduqları (3:4)oyununda dubl etməklə buna nail olub. Benzema bir mövsümdə səfərdəki pley-off matçlarında eyni ölkənin klublarına 5 qol vuran ilk oyunçu kimi tarixə düşüb.*

16

9



## "Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycanı qələbələrə aparır"

# “Sülh müqaviləsi ilə bağlı danışıqların başlanılması üzrə Azərbaycan nümayəndə heyəti hazırdır”

***Prezident İlham Əliyev dünən Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət katibi köməkçisinin Qafqaz məsələləri, regional münaqişələr və Cənubi Avropa məsələləri üzrə müavini Erika Olsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

## *Prezident İlham Əliyev ABŞ Dövlət katibi köməkçisinin müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Nümayəndə heyətinə ABŞ Dövlət Departamentinin Qafqaz bölgəsi danışıqları üzrə ali müşaviri Endryu Şofer, ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqer, Gürcüstandakı səfiri Kelli Deqnan və Ermənistandakı səfiri Linn Treysi daxildir.

Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli əlaqələrin inkişaf perspektivlərinə dair geniş müzakirələr aparıldı. Həmçinin bu il Azərbaycanla ABŞ arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyinin qeyd olunduğu vurğulandı. Bu müddət ərzində ölkələrimiz arasında uğurlu əməkdaşlıq əlaqələrinin qurulduğu, xüsusilə enerji sahəsində sıx əməkdaşlığın həyata keçirildiyi bildirildi.

Söhbət zamanı regional məsələlər barədə fikir mübadiləsi aparıldı, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin hazırlanması üçün danışıqların aparılması, kommunikasiyaların açılması məsələləri müzakirə edildi. Prezident İlham Əliyev bildirdi ki, sülh müqaviləsi ilə bağlı danışıqların başlanılması üzrə Azərbaycan nümayəndə heyəti hazırdır.

Dövlətimizin başçısı 30 ilə yaxın davam edən işğal dövründə Ermənistanın ərazilərimizdə törətdiyi dağıntıları, maddi-mədəniyyət abidələrimizin, 60-dan çox məscidin dağıdıldığını və onlardan tövlə kimi istifadə olunduğunu qeyd etdi. İşğal dövründə ərazilərimizdə Ermənistan tərəfindən çox sayda minaların basdırıldığını deyən Prezident İlham Əliyev hazırda Azərbaycanın üzləşdiyi mina problemini vurğuladı, bu xüsusda ABŞ-ın dəstəyinin əhəmiyyəti qeyd edildi.

Söhbət zamanı dövlətimizin başçısı Birinci Qarabağ müharibəsindən etibarən 4 mindən çox soydaşımızın itkin düşmüş hesab olunduğunu, onların bir çoxunun işgəncələrə məruz qaldığını və öldürülərək Ermənistan tərəfindən kütləvi məzarlıqlarda basdırıldığını bildirdi, həmin məzarlıqların yerləri haqqında Ermənistan tərəfindən məlumatın verilməsinin vacibliyini vurğuladı və bununla əlaqədar ABŞ hökumətinin dəstəyinin zəruriliyini qeyd etdi.

Görüşdə regionda davamlı sülhün, sabitliyin, təhlükəsizliyin təmin olunması və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

# “İkitərəfli münasibətlərimiz ölkələrimizin və xalqlarımızın qarşılıqlı dəstəyinə, həmrəyliyinə əsaslanır”



Prezident İlham Əliyev dünən Gürcüstanın xarici işlər naziri İliya Darçiaşvilini qəbul edib. Dövlətimizin başçısı, ilk növbədə, İliya Darçiaşvilini Gürcüstanın xarici işlər naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb. Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin ölkələrimizin və xalqlarımızın qarşılıqlı dəstəyinə, həmrəyliyinə əsaslandığını bildirdi, əlaqələrimizin möhkəm təməllər üzərində qurulduğunu diqqətə çatdırıb.

Dövlətimizin başçısı, həmçinin ötən 30 il müddətində Azərbaycan ilə Gürcüstan arasında mövcud olan dostluq münasibətlərinin regional sabitlik və əməkdaşlıq işində mühüm amil olduğunu bildirib. İqtisadi sahədə əməkdaşlığa toxunan Azərbaycan Prezidenti xüsusilə nəqliyyat sferasında yeni imkanların olduğunu vurğulayıb.

Cənubi Qafqazın inkişafı ilə bağlı ölkələrimizin birgə baxışlarının olduğunu deyən Prezident İlham Əliyev xüsusilə postmünaqişə dövründə Azərbaycan, Gürcüstan və Ermənistan arasında üçlü formatda qarşılıqlı fəaliyyət üçün yaxşı imkanların olduğunu bildirib və Azərbaycan tərəfinin buna hazır olduğunu qeyd edib. Dövlətimizin başçısı Gürcüstanın da bu mövqeyi bölüşdüyünü deyib, Ermənistanın da bunun regionda sabitliyin və təhlükəsizliyin bərqərar olmasının yeganə yolu olduğunu anlayacağına ümidvarlığını ifadə edib.

İliya Darçiaşvili Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin salamlarını və Gürcüstana səfər etməklə bağlı dəvətini Prezident İlham Əliyevə çatdırıb.

Bakıda çox səmərəli görüşlər keçirdiyini bildirən İliya Darçiaşvili ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına töhfə vermək üçün səylərini əsirgəməyəcəyini deyib. Qonaq Azərbaycan Prezidentinin əlaqələrimizin inkişafına verdiyi dəstəyi Gürcüstan tərəfinin yüksək qiymətləndirdiyini diqqətə çatdırıb.

# Mərakeş nəşri: ”Daxili və xarici siyasətdə praqmatizm və müdriklik Prezident İlham Əliyevin uğurunun ən mühüm xüsusiyyətlərindəndir!”




Mərakeşin ”Asvat” qəzetinin magazineaswat.com elektron nəşrində şərqşünas Həşim Məmmədovun ”Daxili və xarici siyasətdə praqmatizm və müdriklik Prezident İlham Əliyevin uğurunun ən mühüm xüsusiyyətlərindəndir!” sərlövhəli məqaləsi dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın hərbi-siyasi, həm diplomatik, həm də iqtisadi cəhətdən çox gücləndiyi və sürətlə inkişaf etdiyi bildirilir. Bu proseslərin hamısı Prezident İlham Əliyevin nəzarətindədir.

H.Məmmədov yazır ki, Azərbaycanın Prezidenti İlham Əliyevin uğurlu siyasəti ölkəmizin dinamik inkişafını təmin edən ən vacib amildir. Ölkə inkişafının əsas təməllərindən biri də informasiya təhlükəsizliyi sahəsində əldə edilən yeni uğurlardır. Bu, beynəlxalq miqyasda nüfuzun daha da artmasına töhfə verir. Mərakeş nəşri qeyd edir ki, İkinci Qarabağ müharibəsindən sonra regionda və ölkəmizdə cərəyan edən hadisələr görüləcək işlərin çoxluğunu göstərir. Ali Baş Komandan İlham Əliyev bu haqda danışarkən müharibədə qazanılan Zəfərdən sonra qarşıya qoyulan missiyanın hələ tamamlanmadığını vurğulayıb.

Yazıda diqqətə çatdırılır ki, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi xalqımızın çoxəsrlik tarixində mühüm yer tutur. Dövlət sərhədlərini bərpa edərək, Azərbaycan xalqı son əsrdə hərbi və diplomatik sahədə ən böyük Qələbəni qazanmışdır. Qələbəni əbədiləşdirmək üçün köçkünlərin yurdlarına qayıtması təmin ediləcək. Ən əsası, böyük bərpa prosesinin vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə daimi məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə daxil edilməsində mühüm körpü olacağı heç kimdə şübhə doğurmur.

”Asvat” nəşri qeyd edir ki, artıq azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa işlərinə başlanılıb. Otuz il ərzində erməni vandalları yaşayış və ictimai binaları, bütün infrastrukturu, maddi və mədəni abidələri dağıtmış, yeraltı sərvətlərimizi vəhşicəsinə talan etmişlər. Ona görə də, işğaldan azad olunmuş ərazilərdə normal həyatın qaytarılması və iqtisadi inkişafın bərpa olunması böyük maliyyə vəsaiti tələb edir. Bildirilir ki, postmünaqişə dövründə Azərbaycanın digər regionları da diqqətdən kənarda qalmır, respublikamızın bütün əraziləri abadlaşdırılır.

# Zəfər Qurultayı 44 günlük Vətən müharibəsinin zəfər payıdır

***"Bu gün vəziyyət tam başqadır. Bu gün alnımız açıqdır, üzümüz gülür, başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq. Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz". Bu fikirləri Prezident İlham Əliyev aprelin 22-də Qarabağın tacı olan Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Zəfər Qurultayında çıxışı zamanı söyləyib.***



*İlham Əliyev: "Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz"*

Bəli, bu gün vəziyyət 1992-ci il deyil, bu gün torpaqlarımız işğal altında deyil, bu gün artıq biz öz torpağımızdayıq - Qarabağ Azərbaycanındır və bu torpaqda da möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz! Və bu gün keçirilən Zəfər Qurultayı 44 günlük Vətən müharibəsinin zəfər payıdır.

Azərbaycan Prezidenti İlham Əliyev Qarabağın tacı olan Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Zəfər Qurultayında çıxışı zamanı kimin dost, kimin düşmən olduğunu söyləməklə Ermənistanın təəssübünü çəkənlərə də mesajını verdi.

Bildirdi ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq və qalib dövlət kimi yaşayacaq: "Bu, böyük xoşbəxtlikdir - hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər".

### Qalib Liderin Zəfər Qurultayının Zəfər trinubasından: "Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik"

Prezident İlham Əliyev Ermənistanın təəssübünü çəkənlərə Zəfər Qurultayının Zəfər trinubasından bir daha mesajını verdi: "Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik... Bildiyiniz kimi, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu Öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə Şuşaya, qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını bax, belə günəşli hava ilə qarşılayır və bu, bir daha onu göstərir ki, bura bizim tarixi torpağımızdır. Hətta təbiət, günəş də bizimlə həmrəydir".

### "QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLL EDİLMƏSİ PREZİDENT KİMİ MƏNİM ÜÇÜN BAŞLICA VƏZİFƏ İDİ"

Bəli, Prezident İlham Əliyev son 19 illik prezidentlik fəaliyyətində Qarabağ münaqişəsinin həll edilməsi həmişə başlıca vəzifə oldu. Və bunun həlli isə "Dəmir yumruq" siyasəti ilə bütün gücləri səfərbər etdi: "Biz hamımız - həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları bir nöqtəyə vururduq, bir hədəfə çatmaq üçün çalışırdıq". Qələbə qazanmaq üçün ilk olaraq ordunu güxcləndirmək lazım idi. Çünki güclü ordu, güclü dövlət deməkdir. "Məhz buna görə ordu quruculuğu sürətlə aparılmışdır, buna görə Azərbaycan müasir orduya malik olmuşdur, buna görə gənc nəsil vətənpərvərlik, düşmənə nifrət, Vətənə sədaqət ruhunda tərbiyə olunurdu, buna görə iqtisadi islahatlar aparılmışdır. Bizim bütün işlərimizin, apardığımız siyasətin, atdığımız addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq və bu günü görmək amalı dururdu. Biz buna öz gücümüzlə nail olduq".

### GÜCLÜ DÖVLƏT, GÜCLÜ ORDU, GÜCLÜ XALQ HƏMRƏYLİYİ

Bəli, məhz güclü dövlətin, güclü ordunun və xalqın həmrəyliyi ilə 30 il davam edən mənasız danışıqlar əvəzinə öz gücünü ortaya qoydu, ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi və bütün dünyaya sübut etdi ki, biz böyük xalqıq və heç vaxt bu xalq, Azərbaycan xalqı işğalla barışmaq fikrində deyildi.

"Mən dəfələrlə, o cümlədən birinci Qurultaydan sonra keçirilmiş Dünya Azərbaycanlılarının qurultaylarında çıxış edərkən deyirdim ki, biz heç vaxt bu işğalla barışmayacağıq, nəyin bahasına olursa-olsun öz dədə-baba torpaqlarımızı işğaldan azad edəcəyik. Ancaq həqiqətən mən istəyirdim ki, bu məsələ sülh yolu ilə həll olunsun, müharibə yolu ilə yox. Çünki hesab edirdim ki, sülh yolu ilə bu məsələnin həlli mümkündür. Beynəlxalq hüququn norma və prinsipləri ölkəmizin mövqeyini müdafiə edirdi. Dünyanın aparıcı beynəlxalq təşkilatları Azərbaycanın mövqeyini dəstəkləyən və haqq-ədalətə söykənən qərar və qətnamələr qəbul etmişlər",-deyən Prezident İlham Əliyev onu da vurğulayıb ki, Ermənistanın işğalçılıq siyasəti dünya miqyasında artıq heç kimə sirr deyildi: "Eyni zamanda, Azərbaycanla Ermənistan arasındakı qüvvələr nisbəti bizim xeyrimizə böyük dərəcədə dəyişdiriləndən sonra hesab edirdim ki, Ermənistan rəhbərliyi də nəhayət dərk edəcək ki, bizimlə rəqabət aparmaq üçün onların heç bir resursu yoxdur - nə siyasi resursu, nə iqtisadi, nə də insan resursu yoxdur. Hesab edirdim ki, Ermənistanda nəhayət anlayacaqlar ki, XXI əsrdə qonşu dövlətin torpağının böyük hissəsini işğal altında saxlamaq mümkün deyil. Ancaq əfsuslar olsun ki, həm Ermənistan rəhbərliyi, eyni zamanda, beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar fərqli fikirdə idi və uzun sürən - 30 ilə yaxın davam edən danışıqlar, sadəcə olaraq, bu işğalı əbədiləşdirmək, Ermənistanın işğalçılıq siyasətini pərdələmək və bizi bu acı vəziyyətlə barışdırmaq məqsədi güdürdü. Əlbəttə, biz heç vaxt buna razı ola bilməzdik və Vətən müharibəsindəki göstərdiyimiz iradə, qətiyyət, döyüş meydanındakı qəhrəmanlıq bunu bir daha göstərdi".

### "BİZ TƏKCƏ DÜNYA ERMƏNİLİYİ İLƏ MÜHARİBƏ APARMAMIŞIQ, BİZ ERMƏNİSTANIN HİMAYƏDARLARI İLƏ MÜHARİBƏ APARMIŞIQ VƏ BU MÜHARİBƏDƏ QƏLƏBƏ QAZANMIŞIQ"

"Biz təkcə Ermənistanla müharibə aparmamışıq. Biz təkcə dünya erməniliyi ilə müharibə aparmamışıq, biz Ermənistanın himayədarları ilə müharibə aparmışıq və bu müharibədə Qələbə qazanmışıq. Ona görə bu Qələbənin tarixi əhəmiyyəti daha böyükdür",- deyən dövlət başçısı "Ölümə getməyə hazırıq, öldü var, döndü yoxdur" mesajını verdi. Və bildirdi ki, İkinci Qarabağ müharibəsində həlak olanların böyük əksəriyyəti gənc nəslin nümayəndələri idi: "Onların heç biri Qarabağda olmamışdı, bu diyarı görməmişdilər, amma onların qəlbində yaşayan milli ruh, ədalət və Vətən sevgisi onları ölümə apardı. Biz bütün dünyaya sübut etdik ki, XXI əsrdə necə müharibə aparmaq lazımdır, ləyaqətlə müharibə aparmaq lazımdır, müasir üsullarla müharibə aparmaq lazımdır və cəmi 44 gün ərzində Ermənistan ordusu tamamilə məhv edilmişdir. Ermənistanın məhv edilmiş silah-sursatının, texnikasının və qənimət götürülmüş texnikasının qiyməti ən aşağı 4-5 milyard dollar təşkil edir. O başqa məsələdir ki, kasıb ölkə bu pulu haradan əldə edib. Ancaq demək olar ki, Ermənistan ordusu yoxdur. Ermənistan ordusunda müharibə zamanı kütləvi fərarilik hökm sürürdü, onların özlərinin etirafına görə, 10 min fərari olmuşdur Ermənistan ordusunda. Azərbaycan Ordusunda bir dənə də fərari olmamışdır. Budur, xalqımızın böyüklüyü, xalqımızın qələbəyə inamı, xalq-iqtidar birliyi və bütün dünya azərbaycanlılarının birliyi. Mən bilirəm ki, siz və sizin kimi xaricdə yaşayan milyonlarla azərbaycanlı hərə öz ölkəsində həm müharibənin gedişatını yaxından izləyirdiniz, eyni zamanda, öz çıxışlarınızda, öz şərhlərinizdə, sosial şəbəkələrdə və digər imkanlardan istifadə edərək, Azərbaycanın haqq səsini, haqq işini yaşadığınız ölkələrin ictimaiyyətinə çatdırırdınız. Buna bu gün də ehtiyac var. Bu gün də ehtiyac var, çünki müharibə başa çatsa da, bizə qarşı olan ərazi iddiaları hələ ki, başa çatmayıb. Mən əminəm ki, bu da başa çatacaq. Əminəm ki, biz postmüharibə dövründə göstərdiyimiz səylər nəticəsində və bundan sonra göstərəcəyimiz səylər nəticəsində Ermənistanın və dünya erməniliyinin Azərbaycana qarşı ərazi iddialarını da aradan götürəcəyik. Ancaq bu gün hələ ki, bu iddialar var və biz buna hazır olmalıyıq. Biz müharibə dövründə - cəmi 44 gün ərzində 300-dən çox şəhər və kəndi döyüş meydanında azad etmişik. Məhz buna görə Ermənistan məcbur olub və noyabrın 10-da - noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Məhz biz Şuşanı noyabrın 8-də azad edəndən sonra Ermənistan rəhbərliyi nəhayət anladı ki, müharibəni davam etdirmək onlara daha baha başa gələcək... Qırx dörd gün ərzində tamamilə məhv edilmiş Ermənistan ordusu və Ermənistan dövləti faktiki olaraq uçurum kənarında idi. Məcburən noyabrın 10-da kapitulyasiya aktı imzaladı və biz bir güllə atmadan Ağdam, Kəlbəcər və Laçın rayonlarını geri qaytardıq. Beləliklə, biz müharibəni hərbi-siyasi yollarla həll etdik. Yenə də deyirəm, təkbaşına, heç bir vasitəçi olmadan".

***RƏFİQƏ KAMALQIZI***

# Nur və şəfqətlə dolu ziyalı ömrü - ZƏRİFƏ XANIM ƏLİYEVA

***Qadın Tanrının cəmiyyətə bəxş etdiyi müqəddəs varlıqdır. Qadın ana, bacı, həyat yoldaşı, dost, məqam yetişəndə silahdaşdır. Deyirlər, qadın əsrarəngiz bir yaradılış nümunəsidir. Əbəs yerə deyilmir ki. "Cənnət anaların ayaqları altındadır". Bəli, o anaların ki, öz nuru, işığı ilə ətrafı zinətləndirir, dünyaya yeni bir dünya bəxş edir. Qəlbi, əməlləri ilə bu dünyanın əbədi sakininə çevrilir. Cismani yoxluq belə nurlu, istedadlı insanları aramızdan yox edə bilmir. Gözəl niyyət, gözəl əməl, əqidə sahibinə malik insanlar bizim əbədi yol yoldşımıza, müasirimizə çevilirlər. Zaman ötdükcə onların bu əmək və istedadı, vətənpərvərlik duyğuları, elə-obayaya bağlılığı daha aydın görünür.***



Haqlı olaraq Azərbaycan ziyalıları, alimləri ilə öyünür və dünyaya inteqrasiya prosesində mükəmməl nümunələr təqdim olunur. Bu gün qeyri-adi peşəkarlığı ilə şöhrətlənən, dünya oftamologiya elminə töhfələrini verən, böyük qəlbli insan, nəcib qadın Zərifə xanım Əliyevanın doğum günündə həyat və elmi fəaliyyətini bir daha nəzərdən keçirərkən öz əməli fəaliyyəti ilə minlərlə insanın gözünə nur verərək, onlara bu dünyanın gözəlliyini görmək kimi böyük xoşbəxlik bəxş etmiş gözəl və nurlu bir insan obrazı canlanır. Həyat yolu Zərifə xanımın ömrünə elə naxışlar, izlər salmışdır ki, onların hər biri böyük zəhmət və istedadın təcəssümüdür. Hər insan əməli fəaliyyətində bu səadətə - insanlara nur bəxş etmək səadətinə qovuşa bilmir. Təbii ki, böyük istedad, zəhmət və geniş qəlb insanı bu yüksəkliyə ucalda bilir. Gərgin əməyi ilə uzun illər elmi nailiyyətlərə imza atan Zərifə xanım elm aləmində nadir istedadlı şəxsiyyət kimi tanınır. O, elmə gətirdiyi yenilik və çəkdiyi zəhməti ilə dünya oftamologiya elmində öz möhrünü vurub. Elm aləmində nadir istedadlı elə şəxsiyyətlər var ki, onların elmə gətirdiyi yenilik və çəkdikləri zəhmətin tam həcmi zaman və elmi təfəkkür inkişaf edib zənginləşdikcə aydın dərk edilir. Xeyirxahlıq, Ziyalılıq, Analıq simvoluna çevrilən akademik Zərifə xanım Əliyevanın həyat yolu, fəaliyyəti də belə aydın və işıqlı görünür.

### ÇOXCƏHƏTLİ VƏ ZƏNGİN HƏYAT FƏLSƏFƏSİ

Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olan böyük oftalmoloq, Azərbaycanın əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın anadan olmasının 99-cu ildönümüdür. Alimləri sabaha inamla, gələcəyə ümidlə yaşamağa ruhlandıran mənəviyyatca pak və nəcib insan, görkəmli şəxsiyyət olan Zərifə xanımın müqəddəs xatirəsi, ülvi insani keyfiyyətləri, elmi fəaliyyəti təkrarsız bir insan olaraq hər zaman xatırlanır. Təsadüfi deyildir ki, Onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də insanlara nur bəxş etmək olub. O, elm sahəsində elə bir yüksək zirvədədir ki, zaman-zaman öyrəniləcək və tədqiq olunacaq məktəbdir. Özü də yaşadığı illərdə araşdırmalar aparmış, elmi zəkası ilə gəldiyi qənaətlər və nəticələr böyük uğurlara yol açmışdır. Bu uğur bir şəxsin olmuş olsa da, bundan minlərlə, milyonlarla insan bəhrələnmişdir. Beynəlxalq aləmdə cəm olunaraq, bir araya gələn alimlərin müzakirə obyektinə çevrilən elmi nailiyyətləri Azərbaycan səhiyyəsinin dünyaya nüfuz etməsinə gətirib çıxardı. Azərbaycan və Rusiya alimləri arasında əməkdaşlığın təməlini qoyan, oftalmologiya üzrə milli kadrların hazırlanmasında böyük rol oynayan və bütövlükdə, elmin bu sahəsinin inkişafına qiymətli töhfələr verən Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi çoxcəhətli və zəngindir.

Şərəfli bir ömür yaşayan Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan MR-in Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açıb. Uşaqlığı bu kənddə keçsə də, sonradan onlar ailəliklə Bakıya köçüblər. 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Bu elə bir zaman idi ki, Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılmışdı. Bu xəstəliyə qarşı təsirli müalicə üsulları yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlar məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edir. Zərifə xanım Əliyevanın bu istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicəsi işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi.

### "ALİM KİMİ ZƏRİFƏ XANIM ÇOX BÖYÜK ZİRVƏLƏRƏ ÇATA BİLMİŞDİR"

Zərifə xanım "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində, H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Onun dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olmuşdur. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir. Öz həyatını tibb elminə bağlayan Zərifə xanım mərhələ-mərhələ buna nail olub. Elmi tədqiqatların nəticəsi olaraq Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən "Şin istehsalında gözün peşə patologiyası", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyalarını çap etdirməyə nail olur. "Xroniki yod intoksikasiyasında oftalmologiya" mövzusunda yazdığı növbəti monoqrafiya 1981-ci ildə işıq üzü gördü. Elə həmin il oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görüldü. Qeyd olunmalıdır ki, professor Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Zərifə xanım haqqında deyirdi: "Zərifə xanım, sözün əsl mənasında, böyük həkim idi. O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini vermişdir, gənc kadrların hazırlanmasında çox böyük fəaliyyət göstərmişdir. Eyni zamanda, insanların görmə qabiliyyətinə mənfi təsir göstərən istehsalatlarda onun laboratoriyaları fəaliyyət göstərmişdir. Bu laboratoriyalarda bir tərəfdən insanların sağlamlığına zərərli istehsalların təsiri öyrənilmiş, eyni zamanda, xəstələrin müalicəsi də təşkil edilmişdir. Alim kimi Zərifə xanım çox böyük zirvələrə çata bilmişdir. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir."

### ZƏNGİN ELMİ İRSİ AZƏRBAYCAN TİBB ELMİNİN PARLAQ SƏHİFƏSİDİR

Zərifə Əliyeva 1983-cü ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi. Onun daktriologiyadan bəhs edən - "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb edir. Onu da xüsusi olaraq vurğulayaq ki, Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərin müəlliflərindən biridir.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilən Zərifə xanım ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Elmi və ictimai fəaliyyəti diqqətdən kənarda qalmamış və dünya oftalmologiya elminin tanınmış simaları Onun haqqında tarixi sözlər demişlər. Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun direktoru, professor Nazim Əfəndiyevin, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, dövlət mükafatı laureatı A.Nesterovun, tibb elmləri doktoru, professor Z.Skripinçenkonun, Sankt-Peterburq Gigiyena İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, professor A.N. Dobromislovun və başqalarının yazılarında alimin şərəfli, zəngin elmi fəaliyyətinin nailiyyətlərindən danışılır. Zərifə Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında (professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə) öz əksini tapıb.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Övladlarını Ulu Tanrı tərəfindən bəxş olunan nur payı tək qəbul edib. Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə edib. Bu, Onun fədakar ana olmasından irəli gəlirdi.

**Əziz anam, şirin sözlü anam,**
**Qəlbin kövrək, eşqin solmaz bahar.**
**Gülər üzlü, qara gözlü anam,**
**hara getsəm gözün mənə baxar,**
**Ana qəlbin layla olar gəzər,**
**Doğma səsin ömrü-günü bəzər**

Zərifə xanım qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı olaraq cəmiyyətimizə layiqli övladlar böyüdüb. Ata-anasına layiq, qəlblərində daim Azərbaycan sevgisi yaşadan, vətənimizin qüruru sayılan övladlar. Göründüyü kimi, Zərifə xanım şərəfli bir ömür yalukeçib. Bu ömür yolunda uğurlar və yüksəkliklər diqqətdən kənarda qalmır. Vətən keşiyində duran elmli, zəkalı ziyalı. Elm, ədalət, səxavət, səbr, həya, ismət kimi keyfiyyətlər Onun həyat simvoluna çevirilib. Bu dəyərlər içərisində güclü, fədakar oldu. Azərbaycan tarixinə məxsusi dəyələri ilə iz saldı. Yaşanılan ömür yolunun sərlövhələri onu zamanımızın seçilən xanımı etməklə yanaşı, gələcək nəsillər üçün örnək olacaq bir simaya çevirdi. Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi hər kəsə bəlli bir nümunəvi yoldur.

Zərifə xanım Əliyeva yazıb-yaratdığı monumental əsərləri ilə, pedaqoqluq səriştəsi, təvazökarlığı, yüksək peşəkarlığı və milyonların qəlbində əbədi yaşayır.

***N.ƏLƏDDİNQIZI***

# Dünya üçün uğurlu model - Azərbaycan multikulturalizmi



***Azərbaycan müstəqillik illərində dövlət dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində çox mühüm və ciddi addımlar atıb. Müxtəlif dini mənsubiyyətə malik insanlar cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərlərində hiss edirlər. Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşamaları üçün bütün şərait yaradılıb. Sosial bir hadisə olan multikulturalizm və tolerantlıq cəmiyyətdə əmin-amanlıq, bəşəriyyətdə isə sülh deməkdir. Təbii ki, multikulturalizmin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, başqa sözlə, ədalətin bərqərarı deməkdir. Müxtəlif siyasi, iqtisadi və coğrafi şəraitlərdə yaşayan xalqların ədalətə çıxışı, məhz ilk növbədə, çoxmədəniyyətliliyin təmin edilməsindən asılıdır. Bir sözlə, Azərbaycan bu sahədə dünyaya örnək bir dövlət kimi özünü təsdiqləyə bilib.***

Azərbaycan xalqının adət-ənənələri, milli-mənəvi dəyərləri, mədəniyyəti ilə fəxarət hissi keçirən Ulu Öndər Heydər Əliyev dini abidələrə, mədəniyyət ocaqlarına ehtiyatla yanaşır, böyük həssaslıqla qayğı göstərdi. 1994-cü ildə Səudiyyə Ərəbistanında rəsmi səfərdə olan Ulu Öndər Heydər Əliyev islam dininə olan yüksək etiqadı, rəğbətinin təcəssümü kimi Məkkə şəhərini və Kəbəni ziyarət etdi. Bir neçə il sonra 1998-ci ildə isə Həcc ziyarətində oldu. Bu islami dəyərlərə olan münasibət idi.

Ulu Öndər Heydər Əliyev islam dininin mütərəqqiliyini qeyd edərək, onun insanların mənəvi dünyasının paklanmasında rolunu yüksək qiymətləndirdi: ”Bizim dinimiz mütərəqqi dindir. Əsrlər boyu islam dini özünün mütərəqqi olduğunu və eyni zamanda islam dininə itaət edən adamların hamısına özünün nə qədər tərəqqipərvər və nə qədər dünyəvi əhəmiyyətli olduğunu sübut edir, müsəlmanlara daimi xoşbəxtlik bəxş edir. Bizim dinimiz müsəlmanları həyatlarında rast gəldiyi çətinliklərdən xilas etməyə, düşmənlərə qarşı mübarizədə qalib gəlməyə və özlərini, öz ölkələrini, öz dinini, öz peşəsini qoruyub-saxlamağa həmişə yardım etmişdir. Heç şübhə yoxdur ki, islam dini indiyə qədər olan tarixində dünyaya nümayiş etdirdiyi əzəmətini, qüdrətini bundan sonra daha da gücləndirəcək və bütün islam dininə itaət edən adamların hamısını xoşbəxtliyə və səadətə gətirib çıxaracaqdır”. Bəli, bu, həqiqətən də belədir.

### MULTİKULTURAL MÜNASİBƏTLƏRİN DAVAMLILIĞI DÖVLƏT DƏSTƏYİNDƏN QAYNAQLANIR

Tarixi çağlarda aparıcılığı özündə saxlamış Avropa ölkələrinin xalqları islama, islam mədəniyyətinə, incəsənətinə hörmətlə yanaşıb, maraq göstəriblər. İslam öz dəyərləri ilə Qərb dünyasını hər zaman üstələyib. Tarixə nəzər salsaq, bunu açıq-aydın görmüş olarıq.

Ulu Öndər Heydər Əliyevin siyasi irsini və əsasını qoyduğu ənənələri inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev yürütdüyü siyasət dini konfessiyaların dinc yanaşı yaşamasını, qarşılıqlı əlaqəsini, müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə səy göstərmələrini təşviq edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə son 19 ildə İslam, xristian və digər səmavi dinlərin mədəniyyət nümunələri olan tarixi-memarlıq abidələrinin, məscidlərin, ziyarətgahların, müqəddəs dini sitayiş, inanc yerlərinin təmiri və bərpası ilə bağlı görülən işlər deyilənləri bir daha təsdiqləyir.

Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir. Ölkəmizdə 2250-dən artıq məscid mövcuddur, eləcə də 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Bundan əlavə, Zaqatala və Balakən rayonlarında 127 hücrə vardır ki, onların 115-də Ramazan ayında və dəfn mərasimlərində ayin icra olunur. Ölkə ərazisində 23 xristian dua evi, 1 bəhai, 1 krişna ibadətgahı mövcuddur. Bununla yanaşı, hazırda Azərbaycanda dövlət qeydiyyatına alınmış 942 dini qurum fəaliyyət göstərir. Onlardan 907-si İslam, 35-i qeyri-islam təmayüllü (24-ü xristian, 8-i yəhudi, 2-si bəhai və 1-i krişna şüuru) dini qurumlardır. Ölkə başçısının göstərişi ilə bütün əsas dini abidələr təmir olunub. Dünyanın ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş Şamaxı Cümə məscidi yenidən qurulub. Xristian dini abidələri, alban kilsələri, o cümlədən Nic qəsəbəsindəki kilsə, Kiş kilsəsi təmir edilib. Tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunması, həmçinin dini ziyarətgahların, maddi-mədəniyyət abidələrin bərpası və mühafizəsi daim diqqət mərkəzində saxlanılır.

### PLANETİMİZİN TOLERANTLIQ VƏ DÖZÜMLÜLÜK MƏRKƏZİ

Müasir dövrümüzdə ölkəmiz bütün xalqların, bütün səmavi dinlərə tapınanların azad yaşadığı bir dövlətdir. Bütün bunlara rəğmən qürur hissi ilə deyə bilərik ki, bəli, Azərbaycan dünyanın multikulturalizm, tolerantlıq, dözümlülük mərkəzinə çevrilib. Hazırda, Azərbaycanda onlarla milli azlığın nümayəndəsi - rus, ukrayn, tat, kürd, belorus, talış, yəhudi, türk, alman, ləzgi, tatar, avar, gürcü, saxur, udin və s. yaşayır. Onlar öz dillərindən istifadə edir, maddi-mənəvi mədəniyyətlərini qoruyub saxlayır, özlərinin milli-mədəni birliklərini, assosiasiyalarını və ittifaqlarını yaradırlar. Belə təşkilatlardan Talış Mədəni Mərkəzi, Kürd Mədəni Mərkəzi (Ronai), Ləzgi Mədəni Mərkəzi (Samur), Ləzgilərin Mifologiyasını Öyrənən Mərkəz, ”Saxur” Mədəni Mərkəzi, Şeyx Şamil adına Avar Cəmiyyəti, Udinlərin ”Orayin” Mədəni Mərkəzi, tatların ”Azəri” Mərkəzi, Buduq Mədəni Mərkəzi, Azərbaycan Slavyanlarının Mədəni Mərkəzi, Rus İcması Cəmiyyəti, Xınalıq Mədəni Mərkəzi, Azərbaycan Tatlarının İcması, Azərbaycan Gürcülərinin Cəmiyyəti, Azərbaycan Ukraynalılarının Cəmiyyəti, Azərbaycan Avropa Yəhudilərinin İcması, Almanların Milli - Mədəni Cəmiyyəti və s. göstərmək olar.

### TOLERANTLIQ ƏNƏNƏLƏRİNİ DÜNYADA TANITMAQ HƏDƏFİ

Multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məlum Sərəncamı ilə paytaxtımızda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı. Multikulturalizm Mərkəzi yarandığı vaxtdan etibarən Prezidentin müəyyənləşdirdiyi Azərbaycanı, ölkəmizin multikultural dəyərlərini, tolerantlıq ənənələrini dünyada tanıtmaq hədəfini qurumun aparıcı istiqaməti elan edib. Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə 2016-cı ilin Azərbaycan Respublikasında ”Multikulturalizm ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamı ölkəmizdə multikultural mühitə olan münasibətin daha bir real ifadəsinə çevrildi. Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı əsasında Azərbaycan İlahiyyat İnstitutunun yaradılması xalqın tarixi ənənələrinə söykənən dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı milli kadrların hazırlanması baxımından səmərəli addımlardan biri olub.

Bu günlərdə dövlət başçısının ”Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında” Sərəncamı əlbəttə ki, ölkəmizin nümunəvi tolerantlıq mərkəzi olduğunu bir daha təsdiqləmiş oldu. Ölkəmizdə fəaliyyətdə olan Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına, Avropa yəhudilərinin Bakı dini icmasına, Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna, Alban-Udi xristian dini icmasına və s. maliyyə yardımının ayrılması fikirlərimizi bir daha təsdiq edir.

### BÜTÜN MİLLƏTLƏRİN VƏ DİNLƏRİN NÜMAYƏNDƏLƏRİ TAM QARŞILIQLI ANLAŞMA ŞƏRAİTİNDƏ YAŞAYIRLAR

Dövlət tərəfindən multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılması istiqamətində həyata keçirilən multikulturalizm siyasəti və bu istiqamətdə reallaşan tədbirlər dünya dövlətləri üçün nümunəyə çevrilib. Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşaması üçün bütün şərait yaradılıb. Ölkəmizdə heç bir millətin, milli və ya dini azlığın nümayəndəsinə onların dini mənsubiyyətlərinə görə başqalarından üstün olmaq kimi ideyaları aşılamaq yolverilməzdir.

Azərbaycanda dövlətin dəstəyi hesabına sinaqoqlar, məscidlər, kilsələr tikilib və tikilməkdədir. Ölkəmizdə qədim zamanlardan müxtəlif dini etiqadların, o cümlədən müsəlmanların, yəhudilərin və xristianların sülh və əmin-amanlıq şəraitində birgə yaşaması hər kəsə bəllidir. Son illər qloballaşan dünyamızda müxtəlif bölgələrdə dini radikalizm, terrorizm, dözümsüzlük və ksenofobiya kimi halların artdığı dövrdə Azərbaycan özünəməxsus tolerantlıq təcrübəsi ilə beynəlxalq ictimaiyyət üçün uğurlu bir model təqdim edir. Hər bir dinin nümayəndələri rahat yaşayır, milli bayramlarını qeyd edir, öz dilində təhsil almaq imkanına malikdirlər. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin vurğuladığı kimi, bu gün dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınan Azərbaycanda tarixən dinlər əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmiş, fərqli mədəniyyətlərin təmsilçiləri olan ayrı-ayrı xalqlar və etnik icmalar ümumi Vətən sevgisi, azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birlik və həmrəylik nümayiş etdirmişlər: ”Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub-saxlanılması, multikulturalizmin dəstəklənməsi və təşviq edilməsi müasir mərhələdə həyata keçirdiyimiz dövlət siyasətinin başlıca məqsədlərindən biridir. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub-saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir”.

Dünyanın ən qədim xristian dövlətlərindən birinin yerləşdiyi məkan olan Azərbaycanda xristian və müsəlman icmaları ilə yanaşı təqribən 30 minlik yəhudi icması da yaşayır. 2003-cü il martın 9-da Bakıda yeni yəhudi sinaqoqu açılmışdır. Bu, Avropada ən böyük sinaqoqdur. 2003-cü ilin sentyabrından Azərbaycanda ilk yəhudi məktəbi fəaliyyət göstərir. 2010-cu ilin oktyabrında isə Bakının Xətai rayonunda yerləşən üçmərtəbəli təhsil kompleksi ən müasir tələblər səviyyəsində istifadəyə verilmişdir. 450 yerlik mərkəzin digər təhsil müəssisələrindən fərqi burada yəhudi mədəniyyəti əsaslarının tədris olunmasıdır.

Azərbaycanda yaşayan yəhudilər hər il öz bayramlarını qeyd edirlər. Bayram vaxtı sinaqoqda ibadət edir, şofar (musiqi aləti) səsləndirir, xüsusi ayinlər yerinə yetirir, yardıma ehtiyacı olan şəxslərə kömək göstərir, bir masa ətrafına toplaşaraq günahlarının bağışlanması üçün dualar edirlər. Azərbaycanda qeyd olunan Roş-Ha-Şana və digər yəhudi bayramlarının unikal cəhəti müsəlmanlarla xristianların yəhudi bacı-qardaşlarının sevincini, xoşbəxtliyini bölüşməsidir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, ”Ölkəmizin bütün xalqları, o cümlədən yəhudi icması Azərbaycanda həmişə əmin-amanlıq şəraitində yaşamış, heç bir ayrı-seçkiliyə məruz qalmadan dil və mədəniyyətini, adət-ənənələrini qoruyub saxlamışdır. Müstəqil Azərbaycan dövləti bu gün də öz mütərəqqi tarixi ənənələrinə sadiqdir. Müasir demokratik prinsiplərə uyğun olaraq ölkədə insan haqlarının təminatı, milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir”.

Dünyada baş verən dinlərarası münaqişələr və müxtəlif ölkələrdə getdikcə artmaqda olan anti-semitizm və irqçilik fonunda Azərbaycanda bütün xalqlar, o cümlədən yəhudilərin azad və dinc şəraitdə birgə yaşamaları, tam dini etiqad azadlığına malik olmaları çox təqdirəlayiqdir. Nə tarixfboyu, nə də bu gün hər hansı anti-semitizmin olmadığı Azərbaycanda bütün xalqların nümayəndələri sərbəst şəkildə yaşayırlar. Ölkəmizdə mövcud olan vəziyyət, reallıqlar dövlət siyasətinin məntiqi nəticəsidir. Azərbaycanda olan multikulturalizm məktəbi, tolerantlıq bu gün yeni mərhələyə yüksəlib. Reallıq onu deməyə əsas verir ki, ölkəmizdə multikulturalizm alternativi olmayan həyat tərzinə çevrilib.

**Nəzakət**



# Rusiya III Dünya savaşına hazırlaşır

***Üçüncü Dünya müharibəsi riskinin getdikcə artığı və hətta nüvə müharibəsinin olacağı barədə Rusiyanın xəbərdarlığı Yaponiya hökumətini qorxuya salıb. Gündoğar ölkə Rusiya ilə dəniz sərhədinə hərbi gəmilər toplamağa başlayıb. Ukraynada 15 min əsgərini və 500-dən çox tankını itirən Rusiya dünyanı Üçüncü Dünya Müharibəsi ilə təhdid edib və hətta president Vladimir Putin bu müharibənin dəqiq tarixini də açıqlayıb.***

ANALİZ

ABŞ-ın təşkilatçılığı ilə Avropanın ən güclü iqtisadiyyatına sahib Almaniyada çox kritik bir toplantı baş tutub. Ramstein aviabazasında ABŞ və 40-dan çox müttəfiqinin müdafiə nazirləri səviyyəsində keçirilən toplantıda Ukraynaya hərbi yardımı müzakirə ediblər. ABŞ-ın müdafiə naziri Lloyd Austin bazar günü Kiyevə etdiyi səfər barəsində açıqlama verərək bildirib ki, Rusiya o qədər zəifləyib ki, bir daha başqa ölkələri işğal edə bilməz.

Birləşmiş Ştatlar bazar ertəsi günü Ukraynaya yeni 713 milyon dollarlıq silah yardımı elan edib. Bununla da Vaşinqtonun fevralın 24-dən Rusiyanın başlatdığı müharibədə Ukraynaya göndərilən hərbi yardım təxminən 4 milyard dollar çatıb. Müharibədən əvvəl Ukraynaya silah göndərməkdən imtina edən Almaniya fevralın 24-dən etibarən siyasətində xeyli dəyişiklik



edib və əlindəki silahları Ukraynaya göndərməyə başlayıb. Alman mediası rəsmi Berlinin Ramşteyn bazasındakı görüşdən əvvəl aldığı yeni qərarı yayıb.

"Sueddeutsche Zeitung" qəzetinin xəbərinə görə, Almaniya Rusiyaya qarşı istifadə edilmək üçün Ukraynaya "Gepard" tipli tanklar göndərəcək. Qəzet yazıb ki, Almaniyanın müdafiə naziri Kristin Lambrext müttəfiqlərə "Gepard"ları Ukraynaya göndərməyi təklif edib.

Almaniyanın "DPA" xəbər agentliyi rəsmi Berlinin Ukraynaya "Gepard" tipli tankların göndərilməsi üçün yaşıl işıq yandırdığını bildirib. Xəbərə görə, hökumət müdafiə sənayesi şirkəti "Krauss-Maffei Egmann"-a Almaniya ordusunun inventarında olan texniki cəhətdən yenilənmiş "Gepard" tanklarını satmağa icazə verəcək. "DPA" icazə qərarının prinsipcə alındığını yazıb.

Həmçinin bildirilir ki, Almaniya Ukrayna əsgərlərinə artilleriya sistemləri üzrə təlim keçməkdə Hollandiya və ABŞ-a dəstək verəcək. 1970-ci illərdə hazırlanmış və pulemyotlarla təchiz edilmiş "Gepard" tankları əvvəlcə hava hücumlarına qarşı hazırlansa da, həm də yer hədəflərini vura bilir.

Almaniya hökuməti dünən təsdiqləyib ki, Almaniyanın müdafiə sənayesi şirkəti "Rheinmetall" Ukraynaya 100 ədəd "Marder" tipli zirehli döyüş maşını ixrac etmək üçün hökumətə müraciət edib. Hökumət sözçüsü Steffen Hebestreit ixrac icazəsi ilə bağlı qərarın "tezliklə" veriləcəyini açıqlayıb.

Almaniya kansleri Olaf Şolz Rusiyanın hücumuna məruz qalmış Ukraynaya haubitsa və tank kimi ağır silahlar göndərməkdən çəkindiyi üçün həm ölkə daxilində, həm də xaricdə tənqid edilirdi.

Rusiyaya qarşı ən sərt siyasəti ilə tanınan İngiltərənin müdafiə naziri Ben Uolles Ramşteynə yola düşməzdən əvvəl Ukraynaya "Stormer" zirehli maşınlarını göndərəcəklərini açıqlayıb. Britaniyalı nazir Ukraynada 15 min rus əsgərinin öldürüldüyünü, 530-u tank olmaqla 2 mindən çox zirehli texnikanın məhv edildiyini bildirib. Britaniya kəşfiyyatının məlumatına görə, vurulan Rusiya döyüş təyyarələri və helikopterlərinin sayı 160-dır.

Bazar ertəsi Ukraynada 5 qatar stansiyasına havadan zərbələr endirən Rusiya törətdiyi bu aksiyaya açıqlama verib. Bildirib ki, sözügedən qatarlar Qərb ölkələrinin göndərdiyi silahların daşınması üçün istifadə edilirdi. Rusiyanın xarici işlər naziri Sergey Lavrov nüvə müharibəsi təhlükəsinin real olduğunu deyərək dünyanı şoka salıb. Rusiya televiziyasına danışan Lavrov Üçüncü Dünya müharibəsi riskinin hazırda kifayət qədər yüksək olduğunu bildirib və ABŞ və müttəfiqlərindən Ukraynaya silah göndərilməsini dayandırmağı tələb edib.

Rusiyanın baş diplomatı NATO müttəfiqlərinin əsasən Rusiya ilə müharibə apardığını iddia edərək bildirib ki, təhlükə realdır, ciddidir və sakit qəbul edilməməlidir. Rusiya xarici işlər naziri həmçinin NATO üzvlərinin Ukraynaya göndərdiyi silahların Moskva üçün hədəf olacağını bir daha vurğulayıb və "müharibə müharibə deməkdir" ifadəsini işlədib: "Əgər NATO faktiki olaraq Rusiya ilə Ukrayna adlı vəkili vasitəsilə müharibəyə gedirsə, o zaman müharibədə nə etmək lazımdırsa, ediləcək".

Böyük Britaniyanın Silahlı Qüvvələr naziri Ceyms Heappi Lavrovun meydan oxuyan sözlərinə cavab verib və Ukraynada müharibənin tezliklə qızışacağını gözləmədiyini bildirib.

Lavrova daha bir cavab Ukraynanın xarici işlər naziri Dmitro Kulebadan gəlib. Rusiyanın Qərbi 3-cü Dünya müharibəsi təhlükəsi ilə Ukraynaya kömək etməmək üçün qorxutmağa çalışdığını vurğulayan Kuleba "Rusiyanın III Dünya müharibəsi təhlükəsindən danışmasının tək bir məqsədi var, Moskva Ukraynada məğlub olacağını hiss edir", deyib.

Bu arada Rusiya Kuril adaları ilə bağlı mübahisə həddində olduğu Yaponiyaya xəbərdarlıq edən bəyanat yayıb. Moskva ABŞ və Yaponiyanın birlikdə keçirəcəyi dəniz manevrinin geniş vüsət alacağı təqdirdə buna sərt cavab verəcəyini bəyan edib.

Xarici işlər nazirinin müavini İqor Morqulov Rusiya sərhədləri yaxınlığında keçirilən sözügedən təlimin təhlükəsizlik problemi yaratdığını və gərginliyi artırdığını bildirib: "Biz Yaponiya tərəfində ölkəmizin təhlükəsizliyini təhdid edən bəzi fəaliyyətlər görürük. Biz diplomatik kanallarla Tokioya birbaşa xəbərdarlıq edirik".

Rusiyanın qərbində 1340 kilometr quru sərhədi olan Finlandiya ilə digər bitərəf qonşusu İsveç Rusiyanın Ukraynaya təcavüzündən sonra NATO-ya qoşulmaq üçün eyni vaxtda addım atmağa qərar veriblər. Yerli mətbuat yazır ki, iki Skandinaviya ölkəsi may ayında NATO-ya üzv olmaq istədiklərini birgə elan etmək istəyirlər.

Finlandiyanın "İltalehti" qəzeti yazıb ki, baş nazirlər Sanna Marin və Maqdalena Andersson mayın 16-da görüşəcək və alyansa üzvlük üçün müraciəti açıqlayacaqlar. Finlandiyanın xarici işlər naziri Pekka Haavisto "İltalehti"dəki xəbərləri şərh etməkdən imtina edib, lakin iki



ölkənin oxşar seçimlər etməli olduğu fikrini təkrarlayıb.

İsveçin "Aftonbladet" qəzeti Stokholm və Helsinki administrasiyalarının NATO qərarını eyni vaxtda elan edəcəyini yazıb. "Aftonbladet"-ə danışan mənbələr bildiriblər ki, ABŞ və İngiltərə İsveçə Rusiya təhlükəsinə qarşı müraciət prosesi zamanı hərbi mövcudluğunu və güclü siyasi dəstəyi artıracaqlarına söz veriblər.

Rusiya İsveç və Finlandiyanın NATO-ya qoşulacağı təqdirdə Baltik regionunda nüvə silahı yerləşdirəcəklərini açıqlayıb. Moskva əvvəlki açıqlamalarında da "texniki hərbi" tədbirlərin görülməsindən danışıb və iki ölkənin NATO-ya üzvlüyünün ağır nəticələrinin olacağını qeyd edib.

Aprelin 13-də Rusiya ordusunun Finlandiya sərhədinə və Finlandiya körfəzinə raket sistemləri daşımasının videoları yayımlanıb. Video çəkilişdə Helsinki işarəsi də aydın görünüb.

Finlandiya yaxınlığında qeydə alınan raketlər "K-300P" və "Bastion-P" portativ müdafiə sistemləri olub. Qurudan gəmilərə və ya təyyarələrə atılan raketlərin məsafəsi 1000 kilometrə çatır. Raketin havadakı sürəti saatda 3 min kilometri keçir.

Həmin gün İsveçə səfər edən Finlandiyanın baş naziri Sanna Marin NATO-ya üzvlüklə bağlı qərarın bir neçə həftə ərzində veriləcəyini bildirib. Alyansa daxil olub-olmamağı ciddi şəkildə düşünəcəklərini bildirən Marin bildirib ki, əməliyyat kifayət qədər sürətli olacaq, bir neçə həftəyə reallaşacaq.

Finlandiya Rusiya ilə 1300 kilometrlik sərhədə malikdir. 1939-cu ildə Stalin ordularının işğalı zamanı Rusiyaya böyük itkilər verən tarixən neytral ölkə olan Finlandiya nəzəri cəhətdən təhlükəsiz ölkədir. Ölkənin NATO-ya üzvlüyü heç vaxt dəstək qazanmayıb. Lakin Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü işğalın ilk günlərində Finlandiya və İsveçin NATO-ya daxil olmasının ciddi hərbi nəticələri olacağını açıq şəkildə xəbərdar etməsi bu ölkələrdə şok dalğası yaradıb. O vaxtdan bəri Rusiya aid döyüş təyyarələri İsveçin hava məkanını dəfələrlə açıq şəkildə pozub.

Bu gün NATO-ya üzvlük məsələsi Finlandiyada əvvəlkindən daha yüksək dəstək qazanıb. İki finlandiyalının internetdə başlatdığı petisiya gün ərzində on minlərlə imzaya çatıb və təklif Finlandiya parlamentində müzakirə olunub.

Bəli, Rusiyanı dünyanın hər yerində gözləyirlər, həm Finlandiya və İsveç, həm də Yaponiya hədəf olmaqdan yayınmaq üçün müxtəlif addımlar atırlar. Amma bu, Ukraynadakı məğlubiyyətindən qəzəblənən Rusiyanı - "Şimal Ayısı"nı durdurmağa bəs edəcəkmi?

**V.VƏLİYEV**

# "Danışan" şəhər



***Haqqında danışacağım şəhər bizə çox yaxındır, yaşadığımız, hər gün sübhü onunla açdığımız, Günəşi qüruba birgə yola saldığımız, müqəddəs Vətən torpağımıza təmas edən sinəsindən şırımlanan yollarla, küçələrlə, parklarla addımladığımız şəhərdir. Bizi evdən işə, işdən evə, yeni-yeni sabahlara, gələcəyə aparan, uşaqlığımızın, gəncliyimizin şahidi, yaşlılığımızın həmdəmi, xatirələrimiz, düşüncələrimiz, bir də ki qürurumuzun ünvanıdır bu şəhər. Sizə haqqında danışacaqlarımı özü mənə danışan bu şəhər Bakıdır. Bəs o necə danışır? Bu barədə fikirlərimi sizinlə bölüşüm, siz də dinləyin. Hansı səbəbdəndir, bilmirəm, hər yerində onunla dialoq qura bilir, söhbətini dinləyirəm. O, danışır, mənə özündən danışır...***

### Bakı bir melodiyadır

Həm də sanki bu söhbətlərdə bir musiqi ritmi var, o, həzin bir melodiyaya çevrilib axır qulaqlarıma. Belə qənaətə gəlirəm ki, bu şəhər bir musiqi əsəridir. Sözləri də, bəstəsi də özünə aid bu musiqi əsəri. Bu əsərin adı isə "Danışan şəhər"dır. Bu melodiyanı əsrlər öncə Bakı dənizi də adlandırılan Xəzər sularında yaradıb, bəzən həzincə, bəzənsə dəlicəsinə dalğalanan sularında. Axı Xəzər Bakıya aşiqdir. Bəzən sevgisini həzin-həzin anladır, bəzənsə dəlicəsinə küləklərini bu şəhərin üz-gözünə təmas etdirməklə böyük bir məhəbbətindən bəhs edir. Xəzərin həm də bu şəhərə qısqanclığı var. Onu başqa sevənləri gördüyü an külələri ilə sanki qovur şəhərdən onları. "Bakı mənim-Xəzərindir",- deyir. Dinləyin, bu bir məhəbbət simfoniyasıdır. Bu simfoniya gözlərimiz önündə əsrlərdir, bir dənizin bir şəhərə sevdasından danışır. Bu sevginin tarixi 5 min ildən artıq bir zamana bağlıdır.

### Qədim Bakı

Bakı özündən danışır, Şərqin qocaman və ən böyük şəhərlərindən biri olduğundan, qədimliyindən... XII əsrdə Şirvanşahlar dövlətinin, XVI əsrdə Səfəvilər dövlətinin, XVII əsrdə Osmanlı imperiyasının, XVIII əsrdə Bakı xanlığının əsas şəhərlərindən biri olduğundan danışır. Onun haqqında ilk dəfə eramızdan 3500 il əvvəl birinci Misir Fironu Menesanın dövrünə aid əlyazmalardan, Abşeronda və Qobustanda 12 min il tarixi olan daş üzərində yazmalardan, arxeoloji tapıntılardan, eramızdan əvvəl I əsrdə Roma imperatoru Pompeyin və Lukullun Zaqafqaziyanın işğalı məqsədilə ətrafında-40 km cənub istiqamətində saldıqları hərbi düşərgələr barəsində Avqust Qay Oktavi tərəfindən yazılmış daş yazısından bəhs edir. Zığ gölü, Şüvəlan, Mərdəkan, Binəqədi, Əmircan yaşayış məntəqələrində III-I minilliklərə aid arxeoloji abidələrindən və bütün bunlara əsasən 5,5 mindən çox yaşı olduğundan danışır.

Bu şəhər köksündə 5-7 əsrlərə aid Sasani dəfinəsinin tapıldığından, bunun isə o dövrdə buranın yaşayış məntəqəsi olduğunu göstərdiyindən söhbət açır. Adının V-VI əsr mənbələrində Bağavan və Ateş-i Baquan, X əsr ərəb mənbələrində Bakuyə, Bakuh, Baku, XV əsr rus məxəzlərində Baka, Səfəvilər dövrü farsdilli mənbələrdə Badkubə kimi adlandırıldığını vurğulayır.

Qara qızıl şəhəri hələ erkən orta əsrlərdə iqtisadiyyatının əsasını təşkil edən neftdən, duzdan, Bakı və Abşeron bölgəsində becərilən boyaqotundan və dillər əzbəri zəfəranından söhbət açır. Coğrafiyasından, şimaldan-cənuba, qərbdən-şərqə gedən miqrasiya və ticarət yollarının kəsişməsində -"İpək Yolu" üzərində zəngin bir şəhər kimi tarixi mənbələrdə haqqında bəhs olunmasını danışır. İstehsal olunan məhsulların həm quru karvan yolları, həm də dənizlə uzaq Şərq ölkələrinə ixracının o dövrün feodal şəhərinin inkişafının mühüm amili olduğundan bəhs edir.

Bakı sanki Günəşdən qopan alov dilimlərindən, o alov dilimlərindən danışır ki, uzaq tarixdə bu yerlərə yolu düşən səyyahlar dönə-dönə Abşeronun "alov dilimləri" haqqında heyrətlə yazırdılar. Digər bir alov-şəhər yaxınlığında olan "dəniz daşından çıxan alov" barədə məlumat verirdilər.

Dinləsəniz Bakını, o sizə X əsrin axırlarında Şirvanın əsas şəhərlərindən olduğundan, liman şəhəri kimi məşhurlaşdığından, XII əsrin birinci yarısında çəkilən qala divarlarından, Qız qalasından danışar.

### Abidələr şəhəri

Abidələr bu şəhərin hüsnünü bəzəyir, dünənindən xəbər verir, qədim tarixini təsdiqləyir. Bakı köksünə sığınan abidələrindən danışır, YUNESKO-nun Ümumdünya irsi siyahısına salınmış yaşayış məhəlləsi və tarixi-memarlıq qoruğundan- İçərişəhərdən, buradaaçıq havada yerləşən müxtəlif dövrləri əhatə edən 50-dən çox tarixi və memarlıq abidələrinin yaratdığı nadir muzeydən, qoruna-qoruna günümüzədək gəlib çatmış Şirvanşahlar sarayından, Qız qalasından, Sınıq Qala minarətindən danışır. Qız qalasında faciəvi bir rəvayətə şahidliyini ürək ağrısı ilə vurğulayır. Xəzərin bu faciəyə göz yaşlarından yarandığından, o qızın fəth eidlməz, sarsılmaz obrazından söhbət açır. Xarici turistlərin Bakıya gələrkən mütləq bu qədim abidənin tarixi ilə maraqlandıqlarını, buradan onun sevimli Xəzərini seyr etdiklərini deyir.

Tikintisi bütün XV əsr ərzində davam etdirilmiş, Azərbaycan memarlığının ən böyük abidəsi, bir çox tikililərdən ibarət bütöv bir memarlıq ansamblı olan, kompozisiya və planlaşdırılmasına görə dünyada analoqsuz Şirvanşahlar Sarayından qürurla danışır bu şəhər... Suraxanı qəsəbəsində yerləşən XVII əsrin atəşpərəstlər məbədi - Ateşgahdan, onun qaya üzərində qürurla dayanmasından, burada yerin altından çıxan qaz sayəsində min illərlə od yanmasından, bu odun istisinə yığışanlardan söhbət açır.

Köksünə yaxın bir yerə sığınan, 2007-ci ildə Qobustanın qayaüstü rəsmlərinin mədəni landşaftı YUNESKO-nun Dünya Mədəni irsi abidələri siyahısına salınan, ən qədim tarixi abidədən-özünün qayaüstü təsvirləri ilə dünyada məşhur olan Qobustandan da qürurla bəhs edir. Dövlət tarixi-etnoqrafik və bədii qoruğu olan Qobustanda Daş dövrünün və Azərbaycan xalqının tarixi keçmişinin şahidi olan Böyükdaş, Kiçikdaş, Cingirdağ, Sonqardağ və Sıxqayada çoxlu miqdarda qayaüstü təsvirlərin, düşərgələrin, insan məskənlərinin, baş daşlarının olduğunu vurğulayır. Böyükdaş ərazisində mezolitdən tutmuş orta əsrlərə kimi bütün dövrlərin abidələrinə rast gəlindiyindən danışır. Abşeronun "İçərişəhər"i adlandırılan Qaladan-buradakı qədim məscidlər, yollar, ovdanlardan, XV əsrə aid qədim qəbirstanlıqdan, hamamlar, bürünc dövrünə məxsus məskun yerlərin qorunub saxlanmasından bəhs edir. Bu şəhər qədim tarixi ilə qürur duyur, ondan fəxrlə söhbət açır...

### Qədimliklə müasirliyin harmoniyası

Bakının hər küçəsi, hər dalanı, hər xiyabanı bu şəhərin qədimliyi ilə müasirliyinin harmoniyasını özündə əks etdirir. Bu harmoniya ilə o, hüsnünün ilbəil, günbəgün naxışlanmasından, gözəlliyinə gözəllik qatmasından bəhs edir. Gözəlliklərin füsnunun rənglərini zənginləşdirməsini, artıq dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsini xüsusi bir vurğu ilə danışır Bakı. Prezident cənab İlham Əliyevin paytaxtın simasının nəinki ildən-ilə, əslində, gündən-günə dəyişməsini, klassikliyini, milli memarlıq üslubunu qoruyub saxlamaqla müasirləşməsini yüksək dəyərləndirdiyini xatırlayır bu şəhər: "Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Bunu təkcə biz demirik. Bunu, demək olar ki, Bakıya gələn bütün qərəzsiz xarici qonaqlar deyir. Sözün əsl mənasında Bakı parlayan bir ulduzdur. Biz paytaxtımızı parklar, bağlar, ictimai zonalar şəhərinə çevirmişik. İndi yadınıza salın, əvvəlki dövrlərdə qanunsuz tikilmiş, bir-birinin içinə girmiş binalar həm orada yaşayanlara, həm də şəhər əhalisinə nə qədər əziyyət verirdi. İndi biz təmizlənmiş və sakinləri köçürülmüş yerlərdə ictimai zonalar yaradırıq, orada binalar tikilmir".

Dünəni ilə bu gününün müqayisəsində bəzi nüansları yada salır, sadalayır Bakı. Bir vaxtlar onu zəbt edib özününküləşdirənləri, harada nə gəldi tikənləri xatırlayır. Hələ bu tikintiləri aparmaq üçün köksündəki yaşıllıqları məhv edənləri daha yaxşı xatırlayır. Onları xatirə dəftərinə qeyd etdiyi ən pis anlar kimi yada salır. Ötən illərin mənzərəsində onlardan xilas olduğu üçün dualar edir. İndi icazə olmadan onun köksündə nə gəldi tikməkmi olar, hansısa bir ağacı məhv etməkmi olar?.. Artıq bunlar bu müasir şəhərin təkrarolumaz keçmişidir.

### Bakı parlayan bir ulduzdur

Gündüzləri bir, gecələri min tamaşa olan bu şəhəri gəzin. Qədimliklə müasirliyin çiyin-çiyinə mənzərəsində bu şəhər gecələr ulduztək parlayan bir şəhərdir. 162 metr hündürlükdə üçrəngli bayrağımızı dalğalandıran Dövlət Bayrağı Meydanından-qürur ünvanımızdan gəzintisinə çıxaq bu şəhərin. Dalğası, rəngləri Xəzərin sularına rəng qatan bayrağımızı seyr etdikcə onun kimi Qarabağda dalğalanan, gözəlliyini o torpaqlarda əks etdirən bayrağımızın bizlərə bəxş etdiyi Zəfərlə qürur duyuruq. Bu şəhərə bələdçi lazım deyil, çıxın qoynuna, o, özündən danışsın, siz qulaq asın. Üzərində bayrağımız əks olunan Alov Qüllələrinin gözəlliyinə tamaşa edin. Bu gözəlliyi seyr etmək ruhunuzu da gözəlləşdirir, deyir Bakı.

Milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin təbliği sahəsində həyata keçirilən layihələr arasında YUNESKO tərəfindən Bəşəriyyətin Şifahi və Qeyri-Maddi İrsinin şah əsərləri Siyahısına daxil edilən Beynəlxalq Muğam Mərkəzinə üz tutarkən buradan həmişəyaşar muğamlarımızın və ölməz sənətkarlarımızın səsləri duyulur, elə bu andaca Bakı muğamlar şəhərinə çevrilir. Qədim musiqini həzin-həzin axıdır ruhlara, o ruhları xalq musiqisi ilə bəzəyir.

Buradan müasir Bakının rəmzlərindən biri hesab olunan, müasirliyi və yeniliyi özündə təcəssüm etdirən unikal arxitektur quruluşa malik olan Heydər Əliyev Mərkəzinə üz tutaq. Azərbaycan xalqının ümummilli lideri, xilaskarının adını daşıyan bu mərkəz azərbaycançılıq məfkurəsindən, Heydər Əliyev irsindən, bu irsin dəyərindən söhbət açır. Şəhər sakinlərinin, gənclərimizin, qonaqlarımızın əvəzolunmaz ünvanı olan mərkəz həm də Bakının müasir görkəminə vurulan naxışdır.

Bakı müasir görkəmində bağrına yeni bir şəhəri- "Ağ şəhəri" alan şəhərdir. Min bir rənginə bəyazı da qatan şəhər içindəki bu şəhər həm də gözəlliyinə gözəllik qatandır.

Bu şəhərdə son illərin ərmağanı olan Milli Gimnastika Arenası, Milli Olimpiya Stadionu, Su İdman Mərkəzi idmanın ayrı-ayrı sahələrinin inkişafına meydan açmaqla yanaşı, həm də bu şəhərin gözəl memarlıq bəxşişləridir.

Bakı muzeylər şəhəridir. Bu şəhərin tariximizin, mədəniyyətimizin, ədəbiyyatımızın saxlanc yerləri olan muzeylərinə, kitabxanalarına üz tutaq, əsrlərin yaddaşı hopmuş tarix, mədəniyyət səhifələri açılacaq önümzdə, dəyərli ədəbiyyatçılar və ədəbiyyat nümunələri ruhumuzu oxşayacaqdır.

Bu şəhər köksündəki onlarla məktəblərdə, universitetlərində, kolleclərində yetişdirdiyi sabahın qurucularından, hətta xarici ölkələrdən bu elm ocaqlarında təhsil almağa gələn gənclərdən də hər zaman bəhs edir. Onların asudə vaxtlarını, istirahətlərini qoynundakı zəngin fondlu kitabxanaları, kinoteatr, kafe, park, xiyabanları, istirahət mərkəzləri ilə təşkil etməklə yenə də özündən söhbət açır.

Bir sözlə, bu şəhər sakinlərinin məftunu olduğu kimi, onu görənlərin, qoynuna sığınanların da xoş təəssüratlarının şəhəridir. İstirahət, gəzmək üçün hər il seçim edilən, mətbəxi zəngin, sevilən şəhərdir. Heç kəsin hər yerdə rast gəlmədiyi, min illərlə yaşı olan, keçmişinə sadiq, bugünkü müstəqil, Zəfərli ölkəsində var olan, yaşayan, gündən-günə gözəlləşən, bir də ki bütün bunları özü danışan şəhərdir

***Mətanət MƏMMƏDOVA***

# “Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycanı qələbələrə aparır”

***“Səs” qəzetinin redaksiyasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycanı qələbələrə aparır" mövzusunda dəyirmi masa keçirildi. Dəyirmi masada Milli Məclisin İntizam Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Eldar İbrahimov, Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü Şahlar Əsgərov, Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Musa Quliyev, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Elnur Sadıqov, Yeni Azərbaycan Partiyasının Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov və Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin sədr müavini Fəsli Nəbiyev iştirak edirdilər.***




*"Səs" qəzetinin redaksiyasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş növbəti Dəyirmi Masa keçirilib*

DƏYİRMİ MASA

Dəyirmi masanı giriş sözü ilə açan ”Səs” qəzetinin siyasət şöbəsini müdiri İlham Əliyev Ulu Öndər Heydər Əliyevin müdrik siyasətinə nəzər salaraq Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi üçün böyük və zəngin irs qoyduğunu bildirdi. Qeyd etdi ki, Ulu Öndər dönməz əqidəsi və uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub: ”Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, ideoloji, iqtisadi əsaslarını yaradıb, xalqı müstəqil, güclü dövlətə sahib olmaq arzusuna qovuşdurub. Ulu Öndər Heydər Əliyev təkcə Azərbaycan coğrafiyası daxilində deyil, bütün bəşəriyyət tərəfindən qəbul olunan böyük Şəxsiyyətdir”. İ.Əliyev Ulu Öndərin müstəqil respublikamıza rəhbərliyi dövründə əhalinin sosial-rifah halının yaxşılaşmasında, ordu quruculuğunda, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə inqilaba bərabər islahatlar həyata keçirildiyini bildirdi. Qeyd etdi ki, məhz Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycanın dünya xəritəsində yeri və rolu möhkəmlənmiş, beynəlxalq aləmdə nüfuzlu aparıcı dövlətlərdən birinə çevrilmişdir.

**”Səs” qəzetinin əməkdaşı:**

- Eldar müəllim, Ulu Öndər Heydər Əliyevin yaxın əqidə dostlarından və silahdaşlarından olmusunuz. Dahi Öndərin ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdıraq xilaskarlıq missiyasını yerinə yetirməsini necə xarakterizə edərdiniz? Dahi Öndərimizlə bağlı xatirələrinizi də bizimlə bölüşmək maraqlı olardı.

### ÜMUMMİLLİ LİDER HƏLƏ O SOVET DÖVRÜNDƏ BİLİRDİ Kİ, AZƏRBAYCAN NƏ VAXTSA, MÜSTƏQİL BİR DÖVLƏT OLACAQ

**ELDAR İBRAHİMOV:**

- Müasir Azərbaycan dövlətinin Memarı və Qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş Ümummilli Lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız Dahi Şəxsiyyətdir. Ulu Öndər fenomenal şəxsiyyət kimi Azərbaycan xalqı və dövlətçiliyi üçün çox böyük və əvəzedilməz xidmətlər göstərmişdir. Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən dahi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir. Ümummilli Lider Heydər Əliyevin çıxışlarının birində söylədiyi fikirləri xatırlatmaq yerinə düşərdi: ”Mən balaca bir evdə, zəhmətkeş ailədə, bir yaz günü dünyaya göz açmışam. Yəqin ki, dünyaya gəlişimlə beş-on, lap uzağı otuz-qırx nəfər sevinib, yaxud da biri digərindən muştuluq alıb. Bu gün bəlkə də bir qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib. Doğma, canım, varlığım qədər sevdiyim Azərbaycanım həm qibləgahdır, həm də Ziyarətgah. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm, bundan sonrakı günlərimi də ona qurban deyirəm”. Ulu Öndərin mənalı və şərəfli ömür yolunun parlaq səhifələri xalqımızın yaxın tarixi keçmişi ilə ayrılmaz vəhdət təşkil edir. Həqiqətən də Ulu Öndər Heydər Əliyev Azərbaycanı çox sevirdi. Ümummilli Lider hər zaman çıxışlarında bildirirdi ki, mənim gecə-gündüz fikrim Azərbaycanı inkişaf etdirmək və Qarabağ məsələsini həll etmək idi.

Əlbəttə ki, Ümummilli Lider Heydər Əliyev üçün ən önəmli məsələlərdən biri də Azərbaycan dilini yaşatmaq idi. Dili yaşatmaq xalqı yaşatmaq deməkdir. Hələ 1978-ci ildən Azərbaycanda Konstitusiya qəbul olunanda Azərbaycan dili dövlət dili olundu. Həmin vaxtlarda bütün respublikalarda dövlət dili rus dili idi. Ulu Öndər Heydər Əliyev istəyirdi ki, dövlətimizin müstəqil dili Azərbaycan dili olsun. Ümummilli Lider hələ o sovet dövründə bilirdi ki, Azərbaycan nə vaxtsa, müstəqil bir dövlət olacaq. Müstəqillik illərində Ulu Öndər ölkəmizin inkişaf strategiyasını müəyyən etdi, rifahın, tərəqqinin Azərbaycan modelini yaratdı. Müstəqil Azərbaycan xarici siyasətdə etibarlı tərəfdaşlıq və sabitlik mərkəzi kimi çıxış edən, iqtisadi və sosial rifah yolunda qətiyyətli addımlarla irəliləyən, dövlət-vətəndaş birliyinin təşəkkül tapdığı bir ölkəyə çevrildi.

Ümummilli Lider Heydər Əliyevin ölkəmiz üçün həlledici bir məqamda hakimiyyətə gəlişi ilə Azərbaycanın müasir tarixinin şərəfli səhifələrinin yazılmasına və dövlətimizin müstəqilliyinin əbədiliyinə hərtərəfli zəmin yaratmış oldu. 1993-cü ildə Ulu Öndər hakimiyyətə gəldikdən sonra qısa müddət ərzində atəşkəs elan olundu. 1994-cü ilin sentyabrında ”Əsrin müqaviləsi” bağlandı. Azərbaycan dinamik inkişaf yoluna qədəm qoydu. Bu gün Ümummilli Liderin ideyaları Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin gərgin əməyi və fəaliyyəti nəticəsində yaşayır və uğurla inkişaf edir. Əminliklə demək olar ki, dövlət başçısının apardığı həm xarici, həm də daxili siyasət Heydər Əliyev kursunun davamıdır. Əsası Ümummilli Lider tərəfindən qoyulan və Cənab Prezident İlham Əliyev tərəfindən davam etdirilən ordu quruculuğu siyasəti nəticəsində Azərbaycan ordusu 30 il işğal altında qalan torpaqlarımızı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində işğaldan azad etdi. Ulu Öndərin yeganə arzusu da bu idi. Ümummilli Lider Kəlbəcər rayonunun sakinləri ilə görüşündə qeyd etmişdi ki, biz hökmən Qarabağa qayıdacağıq. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri var və danışdıqca tükənmir.

### Ulu ÖNDƏRİN HAKİMİYYƏTƏ QAYIDIŞI MÜSTƏQİL AZƏRBAYCANIN TƏMƏLİNİ MÖHKƏMLƏTDİ VƏ ƏBƏDİ ETDİ

**ŞAHLAR ƏSGƏROV:**

- Bu gün Azərbaycanı 1990-cı illərin əvvəli ilə müqayisə etmək mümkün deyil. Əgər Azərbaycanın müstəqilliyinin ilk illərində baş verən hadisələrin qarşısı alınmasaydı və Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı olmasa idi, əlbəttə ki, bu günün Azərbaycan reallıqlarından belə söhbət açıla bilməzdi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə və milli inkişaf konsepsiyasına sədaqət ruhunda fəaliyyət göstərən YAP müstəqil dövlətimizin qurulması və möhkəmlənməsinə, ölkəmizdə sosial-iqtisadi inkişafın təmin olunmasına yönələn misilsiz xidmətlərlə zəngin olan yol keçib. O vaxtkı iqtidarın səristəsiz siyasəti dövlətə, xalqa qarşı edilən xəyanətlər elə bir vəziyyət yaratmışdır ki, hətta Azərbaycana dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi yaratmışdır. Həmin vaxtlar YAP-ın yaranması tarixi zərurət kimi qeyd olunur. Dövlətçilik məfkurəsini gücləndirmək, milli dövlətçilik ideologiyasını işləyib-hazırlamaq və onu reallaşdırmaq həmin dövrlər üçün güclü siyasi iradə və bacarıq tələb edirdi. Bunların öhdəsindən layiqincə gələ biləcək şəxs Ulu Öndər Heydər Əliyev ola bilərdi. 1992-ci il noyabrın 21-də YAP-ın təsis konfransı keçirildi və qısa zaman kəsiyində, YAP siyasi hakimiyyətə gəldi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı müstəqil Azərbaycanın təməlini möhkəmlətdi və əbədi etdi. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz çox böyük uğurlar qazanmışdır. Son illərdə görülən işlər bunun deməyə əsas verir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə müxtəlif sahələri əhatə edən sistemli, genişmiqyaslı və kompleks islahatlar reallaşdırılıb. Eyni zamanda, Azərbaycanın gələcək inkişafı üçün yeni hədəflər və strateji prioritetlər müəyyənləşdirilib, bu istiqamətdə addımlar atılıb, ciddi nailiyyətlər əldə olunub. Ən əsası, Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanımız Cənab İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm qələbə qazanıb.

## ULU ÖNDƏR AZƏRBAYCANIN ƏN BÖYÜK MİLLİ SƏRVƏTİ OLAN NEFTİ MÜSTƏQİL AZƏRBAYCANA SAXLADI

**MUSA QULİYEV:**

- İlk olaraq "Səs" qəzetinə belə bir dəyirmi masanı təşkil etdiyinə görə təşəkkürümü bildirirəm. Bu vacib və aktual mövzu ətrafında dəyirmi masanın təşkil olunması çox əhəmiyyətlidir. Bir həqiqət var ki, Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini dünyanın bir çox institutları tədqiq edir və bununla bağlı əsərlər yazılır. Amma biz yenə də bu cür xarizmatik Liderin, Dahi Şəxsiyyətin həyat və fəaliyyəti barədə hələ uzun illər danışacağıq, mən buna əminəm. Azərbaycanda tarixində böyük, dahi insanlar çox olub. Amma Heydər Əliyev bunların hamısının fövqündə duran şəxsiyyətdir. Ən azı ona görə ki, Heydər Əliyev iki biri-birinə ideoloji və iqtisadi baxımdan zidd sistemdə yaşayıb, ölkəyə başçılıq edib. SSRİ məkanında öz iqtisadi göstəricilərinə görə axırdan ikinci olan ölkəni əvvəldən ikinci yerə gətirib çıxarıb. Eyni zamanda müstəqil Azərbaycana da rəhbərlik edərək, ölkənin inkişafı üçün əlindən gələni edib. Ulu Öndər Heydər Əliyevin Azərbaycanın sosial-iqtisadi inkişafındakı rolu misilsizdir və bunu sözlə ifadə etmək mümkün deyil. Azərbaycan kəndi 1969-cu ildə ən acınacaqlı bir vəziyyətdə idi. Azərbaycan fəhləsi, müəllimi, alimi öz əməyinə görə SSRİ məkanında ən az əməkhaqqı alan kadrlar idi. Çünki ölkənin əmək bazarları və münasibətləri məhdud bir səviyyədə idi. Dahi Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra isə strateji qanunlar qəbul etdi. Şüar isə "Qoy ədalət zəfər çalsın" idi. O cür bir dövrdə ədalətin olmadığının göstəricisi idi. Deməli, ədalət ya yoxdur, ya da ədalət hələ zəfər çalmayıb. Bu bütün bir ölkəyə, respublikaya mesaj idi ki, daha bu cür yaşamaq və işləmək olmaz. Heydər Əliyevin zamanında SSRİ Nazirlər Kabineti Azərbaycanla bağlı 5 qərar qəbul etdi. Heç zaman belə bir hadisə baş verməmişdi. Bu qərarlarda pambıqçılıq, şərabçılıq, kimya sənayesinin və s. inkişafı öz əksini tapmışdı. Nikolay Baybakov əsil Bakılı olub. O çox maraqlı bir söz demişdi: "Heydər Əliyev sovet hökuməti rəhbərlərinin başını pambıq və üzümlə qataraq, Azərbaycanın ən böyük milli sərvəti olan nefti müstəqil Azərbaycana saxladı". Bu böyük bir siyasət idi. Yəni Heydər Əliyev istəsəydi həmin dövrdə indikindən də çox neft çıxara bilərdi. Amma o, bilirdi ki, Azərbaycan nə vaxtsa müstəqil olacaq və Azərbaycanın ən böyük sərvəti budur. Amma pambığı, üzümü və digər kənd təsərrüfatı məhsullarını torpağın varsa, istənilən vaxt əkə bilərsən. Təbii ki, həmin dövr üçün bunların məhsuldarlığını qaldırmaq üçün paralel olaraq, Azərbaycanın kimya sənayesi də inkişaf etdi. Azərbaycanda həmin dövrdə kənd yerlərində yaşayan 100-lə sosialist əmək qəhrəmanı və digər SSRİ-nin yüksək mükafatlarına layiq görülən sadə kəndlilərimiz ortaya çıxdı. Bu həm də kənd insanın inkişafı demək idi. Eyni zamanda bu əmək bölgüsünün də kənd və şəhər arasında düzgün bölünməsi demək idi. Sumqayıt, Gəncə, Mingəçevir o zaman inkişaf etdi. Bakıda bir çox sənaye zavodları istifadəyə verildi. O zavodlarda da Azərbaycan balaları işlədi. Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə Azərbaycan iqtisadiyyatı 2,5 dəfə artdı. İqtisadiyyatın 2,5 dəfə artması möcüzə idi. Həmin rekordu da Cənab Prezident İlham Əliyev təkrarladı. 2003-2020-ci illərdə Azərbaycan iqtisadiyyatı 3,1 dəfə artdı.

## ULU ÖNDƏR 1969-CU İLDƏ MƏRKƏZİ KOMİTƏNİN BİRİNCİ KATİBİ SEÇİLDİKDƏ MÜSTƏQİL DÖVLƏT QURUCULUĞUNUN ƏSASI QOYULDU

**VÜSAR İSMAYILOV:**

- Çox dəyərli ziyalılarımız Ulu Öndərin həyat və fəaliyyəti haqqında dəyərli fikirlər söylədilər. Ulu Öndər Heydər Əliyevin fəaliyyəti çox şaxəlidir. Yeni Azərbaycan Partiyası təsis olunduqda mən partiyanın ən gənc üzvlərindən biri kimi bu prosesə qoşuldum. Mən də keçirilən təsis konfransının iştirakçılarından biri olmuşam. Xatırlayıram, Şərur təşkilatının təsis konfransında Ulu Öndər Heydər Əliyev iştirak etdi. Orada hətta mən konfransın redaksiya heyətinin üzvü seçilmişdim. Yadımdadır ki, təqdimat olduqda hər kəs ayağa qalxırdı. Mən də ayağa qalxdıqda gənc olmağım Ulu Öndərin Heydər Əliyevin diqqətini çəkdi. Bu zaman Ulu Öndər çıxışında da bildirdi ki, gənclər bu prosesə cəlb olunmalıdır. Təbii ki, o zaman Ulu Öndər Heydər Əliyevi görmək çox böyük xoşbəxtçilik idi. Hətta hər birimiz can atırdıq ki, Ulu Öndər Heydər Əliyevi daha yaxından görək. Mən belə bir xoşbəxtliyə nail oldum. Bu xoşbəxt hissləri, duyğuları heç vaxt unutmayacağam.

Müstəqil dövlət quruculuğu Dahi Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Lakin diqqət etdikdə görərik ki, müstəqilliyə gedən yol 1969-cu ildən başlayıb. 1969-cu ildə Ulu Öndər Heydər Əliyev Mərkəzi Komitənin Birinci Katibi seçildikdə əslində müstəqil dövlət quruculuğunun əsası qoyuldu. Artıq bütün sahələrin inkişafına böyük önəm verilirdi. Xüsusilə də iqtisadiyyatın inkişaf etməsi, təbii olaraq, digər sahələrin də inkişaf etməsinə təkan verirdi. Ulu Öndərin o dövrdə sənət adamlarına verdiyi diqqət və qayğı da böyük əhəmiyyət daşıyırdı. Hətta həmin dövrdə sənət adamlarının xarici ölkələrə səfərlərinin təşkil olunması çətin idi. Çünki Heydər Əliyev üçün Azərbaycanın tanıdılması birinci məsələ idi. Azərbaycanın tanıdılmasında iştirak edən şəxslər də Heydər Əliyev üçün doğma insanlar idi. Çünki həmin şəxslər nəinki SSRİ daxilində, hətta ondan kənarda belə Azərbaycanı tanıdırdılar. Təbii ki, bu şəraiti məhz Heydər Əliyev yaradırdı. İstər birinci, istərsə də ikinci Qarabağ savaşında açılan hərbi məktəbin zabitləri şəhid oldular. Müharibədə iştirak edən şəxslərin 70 faizi məhz elə Cəmşid Naxçıvanski adına hərbi liseyi bitirən şəxslər idi. Bütün bunlar da təbii ki, yenə də Dahi Öndər Heydər Əliyevin fəaliyyətinin göstəricisi idi.

**(ardı var)**

**Nəzakət ƏLƏDDİNQIZI**

---

*Aprelin 27-də Yeni Azərbaycan Partiyasının (YAP) Gənclər Birliyi "Vikipediya açıq ensiklopediyada Azərbaycan həqiqətlərinin təbliği" mövzusunda görüş keçirib. Tədbirdə ərazi bütövlüyümüz uğrunda şəhid olmuş insanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

# YAP Gənclər Birliyi tərəfindən həyata keçirilən "Viki Klub" layihəsinin təlimləri başa çatıb









Çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov görüşün formatı və əhəmiyyəti barədə məlumat verib. O, Vikipediya açıq ensiklopediyasında Azərbaycan həqiqətlərinin təbliği istiqamətində görülən işlərin uzun illərdən bəri davam edən informasiya mübarizəmizdə böyük rol oynadığını qeyd edib.YAP Gənclər Birliyinin də bu istiqamətdə fəaliyyətini genişləndirdiyini diqqətə çatdıran Bəxtiyar İslamov, yeni formalaşdırılmış klub vasitəsi ilə partiya fəal gənclərin ölkəmizlə bağlı Vikipediya elektron ensiklopediyasında mövcud məlumatları mütəmadi təkmilləşdirdiyini diqqətə çatdırıb.

Milli Məclisin deputatı Elnur Allahverdiyev çıxış edərək deyib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun işğalçı Ermənistan üzərində qələbəsindən xeyli vaxt keçsə də, informasiya müharibəsi davam edir və bu müharibədə gəncliyimizin müstəsna yeri var.

YAP Gənclər Birliyinin "Qorqud" Vikipediya Metodik klubunun tərəfdaşlığı ilə həyata keçirdiyi "Viki Klub" layihəsinin strateji əhəmiyyətindən danışan E.Allahverdiyev YAP-da təmsil olunan gənclərin böyük potensialı olduğunu və gələcəkdə də bu istiqamətdə yeni uğurlar əldə edəcəklərinə inandığını qeyd edib. Deputat 2020-ci ildən sonra regionda yaranan yeni reallıqların və Azərbaycan həqiqətlərinin təbliğində Vikipediya resursundan geniş istifadə olunduğunu deyib. E.Allahverdiyev bu prosesin sürətlənməsi və daha böyük nəticələr əldə edilməsi üçün gənclərimizin xarici dil biliklərini genişləndirməyinin önəmini vurğulayıb. İl ərzində təkcə Azərbaycan dilli açıq ensiklopediyaya 350 milyondan çox giriş olduğunu qeyd edən deputat ölkəmizlə bağlı məlumatların digər dillərə tərcümə edilərək vikipediyada yerləşdirilməsi ilə həmin rəqəmi 3-5 dəfə və daha çox qaldırmağın mümkünlüyünü bildirib.

Görüşün sonunda Milli Məclisin deputatı tədbir iştirakçılarının suallarını da cavablandırıb. Sonra "Viki Klub" layihəsi çərçivəsində həyata keçirilmiş təlimləri uğurla başa vurmuş gənclərə diplom və sertifikatlar təqdim edilib.

# Fəlakətli sonluğa, məhvə apara bilən BÖYÜK SƏHV



*Bir qədər əvvəl "qızıl dağlar" vəd edən Nikol Paşinyana erməni xalqı inandı, meydanlara toplaşdı və bununla da hakimiyyət dəyişikliyi nəticəsində o baş nazir kürsüsünə oturdu. Bu hadisələrdən sonra erməni baş nazirinin üzərinə düşən verdiyi vədlərə əməl etmək idi və o məhz beləliklə xalqın etibarını doğrulda bilərdi. İndi Ermənistana məxsus mətbuat səhifələri bar-bar bağırır ki, ermənilər Paşinyanın vədinə əməl etdiyini görmədi və bu ölkə çətin vəziyyətə düşüb, hansıki yenə də bu ölkənin baş naziri bir çarə tapa bilmir. Hətta qeyd olunur ki, İrəvanda cərəyan edən hadisələr, ələlxüsus erməni xalqının hakimiyyət əleyhinə narazılıqları, keçirdikləri mitinqlər də bu səbəbdəndir.*

Həqiqətən də işğalçı ölkədə ara qarışıb. Bir-birini günahkar bilənlər meydana toplaşaraq narazılıqlarını ifadə edirlər və bunların əksəriyyəti Paşinyanın əleyhinədirlər. Elə Paşinyanın yaxın ətrafı da həmin o əksəriyyətini günahkar hesab edir. Məsələn, hakim "Mülki Müqavilə" partiyasından olan parlament üzvü, keçmiş səhiyyə naziri Arsen Torosyan öz "Facebook" səhifəsində bu barədə yazır və iddia edir ki, insanların küçə və meydanlara yığılması müharibəyə çağırış və təbliğatdan başqa bir şey deyil. Onun sözlərinə görə bu, artıq hansısa tamamilə transsendental təkəbbür səviyyəsidir. Deputatın fikrincə, bu hadisələrdə, narazılıqların ifadə edilməsində, qarışıqlıq yaradılmasında məqsəd hakimiyyəti ələ keçirmək cəhdidir. Deməli, ermənilər özləri də başa düşürlər, qəbul və etiraf edirlər ki, bu işğalçı ölkədə yalnız çirkin niyyət meydan sulayır və sülh danışıqlarına mane olmaq cəhdi həmin o çirkin niyyətin təzahürüdür. Etiraf olunur və bəyan edilir ki, Ermənistan və ermənilər yalnız sülh şəraitində mövcud olaraq qala bilərlər və növbəti dəfə müharibə bu ölkə üçün daha dəhşətli fəlakət, son deməkdir.

Məsələ burasındadır ki, çirkin niyyətlilər bu etiraz aksiyalarına o qədər də çox insan cəlb edə bilməyiblər. Bu da təsadüfi deyil. Deməli, pafoslu yalançı çıxışlara, avantürist nitqlərə bu xalqın özü də artıq qulaq asmaq istəmir. Üstəlik, 44 günlük müharibədə aldanıldığını görən erməni xalqı çox nəticələr çıxarmalıdır axı. Nəticə çıxarmalıdır ki, onların qulaqları boş sözlərlə doldurulub, yalandan dırnaqarası "erməni əsgəri", "Ermənistan silahlı qüvvələri" barədə mif yaradılıb və bu mif cəmi 44 gün ərzində dağıldı, rəşadətli Azərbaycan Ordusu tərəfindən, Azərbaycanın Ali Baş Komanının rəhbərliyi ilə, Azərbaycan xalqının həmrəyliyi, birliyi ilə ən qısa zamanda dağıdıldı. Anlaşılmalıdır ki, erməni xalqı sadəcə alət olaraq çirkin oyunlarda istifadə edilir, hansıki hər zaman onun bədbəxtliyi ilə, məğlubiyyəti, rüsvayçılığı ilə nəticələnib, necə ki, sonuncu dəfə də belə oldu. Qarabağa, Azərbaycan torpaqlarına göz dikən çirkin niyyətlilər sıravi erməni xalqının balalarını döyüşə göndərdilər, özləri isə ortada görünmədilər və bu əsasən diqqətdən yayınmamalıdır. Birdəfəlik bilinməlidir ki, onlar marianet kimi oyuna salınır və qulaqları gəlişigözəl sözlərlə doldurularaq fəlakətə sürüklənirlər. Yəni, nə qədər davam edə bilər bu və hansı həddə qədər oyuncaq olmaq olar kimlərinsə əlində?

Əslində, görünən mənzərə də təsdiq edir ki, heç də avantüristlər əvvəlki kimi meydan sulaya bilmirlər və onların sağırışlarına qoşulanların sayı günü-gündən azalır. Bu toplumu tərif, yaxud müdafiə etmək kimi bir niyyətimiz yoxdur, səhvləri kifayət qədərdir, özü də məhz bizə, xalqımıza qarşı yanlışlıqları çox olub, amma məsələ burasındadır ki, indi bəzi hiyləgərlərin olmayan üzlərinin dərisi cırılıb və hər şey göz önündədir deyə arzuları ürəklərində qalır, nəticə əldə edə bilmirlər. Üstəlik, Ermənistanda aparılan rəy sorğuları da göstərir ki, əhalinin əksəriyyəti bu etirazların effektli olacağına, onlara verilən vədlərə inanmır. Müxalifət liderləri çoxdan məlum olan və nüfuzdan düşmüş personajlardır ki, onlara ümid edən, inanan çox az sayda erməni qalıb.

Digər məsələni də diqqətə çatdırmaq yerinə düşərdi ki, erməni xalqı inqilabi yolla hakimiyyət dəyişikliyinin özünün belə yaxşı heç nəyə səbəb olmadığının artıq şahidi olub. Şahidi olub ki, verilən vədlər elə vəd olaraq, söz olaraq qalıb və onların güzəranında, yaşayışında yaxşıya doğru heç bir dəyişiklik yoxdur, əksinə pisə doğru kifayət qədər dəyişiklik var. İşğalçılığı dövlət siyasəti kimi qəbul edən ölkənin, iqtisadi, demoqrafik, daxili siyasi problemlər olmala bir sıra çətinliklərlə qarşılaşdığı göz önündədir. Heç kim üçün sirr deyil ki, Nikol Paşinyanın "qızıl dağlar" vəd etdiyi ölkə problemlər içində boğulur. Ermənistan artıq dünyada yalnız məğlub ölkə olaraq tanınıb, fərarilik, döyüş meydanında silahları belə qoyub qaçmaq, qorxaqlıq kimi rüsvayçılıqları da sadalamaqla bitən deyil, hansıki onları hər zaman xəcalət çəkməyə vadar edəcək.

Maraqlıdır, indi özlərini revanşist adlandıran qüvvələr, ünsürlər hansı ağılla ortaya, meydana atılıblar? Yəni, doğrudanmı elə hesab edirlər ki, onlara inanan kütlə olacaq? Çox az sayda insanın meydanlara toplaşmasına bel bağlamağın nə qədər ağılsızlıq olduğunun belə fərqində deyillərmi? Sual oluna bilər ki, sonuncu müharibədən əvvəlki arsenalı, hərbi kontingenti ilə savaşa qatılanlar cəmi 44 gün ərzində Azərbaycanın qarşısında diz çökdülərsə, bütün xarici ölkələrə, xarici ölkə rəhbərlərinə yalvararaq vasitəçilik missiyasından istifadə edib kapitulyasiya sənədini, məğlubiyyətlərini təsdiqlədilərsə, indiki rəzil durumda bunlar nəyə nail ilacaqlarına ümid edə bilərlər? Ümumiyyətlə, nəyə isə ümid etmək belə mümkündürmü? Əlbəttə ki, mümkün deyil və bu işğalçı ölkənin öz daxili dərdi, fəlakəti özünə bəsdir və başqa nə isə düşünməyə taqəti belə yoxdur.

Tutaq ki, hakimiyyəti ələ keçirmək üçün hiyləyə əl atılır və məqsəd yalnız kaimiyyət kürsüsüdür. Onu da zənn edək ki, bunlar Ermənistanda hakimiyyəti ələ keçirməyə ümid edirlər. Yenə də sual oluna bilər ki, belə bir ölkənin hakimiyyətini ələ keçirmək kimin nəyinə lazımdır? Ermənistan üçün, erməni xalqı üçün də fəri nədir axı? Paşinyan yox, onun kimi başqa bir şeylər vəd edənin birinin gəlməsi nəyi dəyişəcək, əgər doğru, düzgün siyasət aparılmasa, sülhə imza atılmasa, normal qonşuluq siyasəti yürüdülməsə və bunun nəticəsi olaraq iqtisadi layihələrdə bu ölkə iştirak edib öz durumunu yaxşılaşdırmasa? Hakimiyyətə gəlməsini arzu edən kimsənin sehrli çubuğu yoxdur ki, bununla dərhal ölkəsini çətin durumdan çıxara bilə. Həm də axı hakimiyyət iddiasında və arzusunda olanın nəyinə lazımdır belə bir rəzil durumda olan ölkənin hakimiyyətini ələ keçirmək? Bu onun özü üçün də baş ağrısı olmazmı, əgər normal siyasət yürütmək deyil, revanşist ideyaları ortaya atacaqsa? Xatırlatmaq yerinə düşərdi ki, belə bir ssenari Ermənistan üçün fəlakətli sonluq deməkdir. Bu böyük səhv olar.

Kimliyindən, kim olmasından asılı olmayaraq ölkəsini vəziyyətdən çıxarmaq istəyən qonşu ölkələrlə normal qonşluq, sülh şəraitində yaşamaq yolunu seçməlidir ki, inkişafa, dirçəlişə zəmin yaratsın. Bəzən müəyyən sərsəm bəyanatlarla çıxış etsə belə, bunu Paşinyan yaxşı başa düşüb və ağlı başına gələndə hərdən sülh danışıqlarının qaçılmaz olduğunu etiraf və bəyan edir. Çünki, gec də olsa dərk edib ki, əks halda atılan bütün addımlar Ermənistanı fəlakətə aparan, məhvə sürükləyən səhv ola bilər. Yada salmaq yerinə düşərdi ki, Ermənistanın küçələrində belində çanta mitinq təşkil edib iddialı danışanın birincisi elə Paşinyan özü idi və Qarabağda sərxoş vəziyyətdə atılıb düşməsinin ardınca kapitulyasiyaya tələsik imza atmaq məcburiyyətində qaldı. İndi də çox atılıb düşənlər üçün bu bir dərs olmalıdır və bilməlidirlər ki, sülh sazişinə imza atmaqdan, sərhədlərimizi rəsmi şəkildə tanımaqdan, normal qonşluq siyasəti yürütməkdən, işğalçılıqdan əl çəkməkdən başqa atacaqları bütün addımlar onlar üçün fəlakətli sonluğa gətirə bilən böyük səhv olar.

***İnam Hacıyev***

## "Azərbaycanın regionda yaratdığı reallıq qarşısında Ermənistan sülh müqaviləsini imzalamağa məcburdur"

***Azərbaycanın regionda yaratdığı yeni reallıq davamlı sülhün əsasıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bütün çıxışlarında da qeyd etdiyi kimi, ölkəmizin artıq 5 prinsipdən ibarət sülh təklifi Ermənistana, eləcə də dünya ictimaiyyətinə açıqlanıb. Bu prinsiplər Avropada, eləcə də bütün dünyada müsbət qiymətləndirilib.***



Prezident İlham Əliyevin sonuncu Brüssel səfəri "Brüssel prosesini" yaratdı. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin bəyanatında da bu, əyani şəkildə təsdiqləndi. Bu fikirləri AŞPA-dakı nümayəndə heyətimizin rəhbəri Səməd Seyidov AZƏRTAC-a müsahibəsində deyib. O bildirib ki, Ermənistan bu sülh müqaviləsini imzalamağa məhkumdur, çünki Ermənistana qalsa, tərəddüdləri ilə bunu başqa istiqamətə yönəltməyə cəhd edər. Ancaq ölkəmizin yaratdığı mövcud reallıq Ermənistanı məhz Azərbaycanın təklif etdiyi sülh prinsiplərini imzalamağa, sülh prosesinə qoşulmağa məcbur edir. Əlbəttə, bu, Ermənistan daxilində çətinliklər yaradır və açıq şəkildə görünür. Belə ki, revanşist qüvvələr Azərbaycana və Türkiyəyə qarşı provokasiyalara əl atırlar. AŞPA-nın yaz sessiyasının ilk günündə də bunun şahidi olduq.

Ermənistan nümayəndə heyətinin üzvü qeyri-konstruktiv mövqedən çıxış edərək, yalan və böhtandan ibarət çıxışı ilə AŞPA sessiyasının istiqamətini dəyişməyə cəhd etdi. Buna dözə bilməzdik, erməni deputatın yalanlarına reaksiya verməliydik. Avropalı parlamentarilərə bir daha göstərməli idik ki, sülhün tərəfdarı kimdir. Regionda sabitliyi pozmaq, təxribat törətmək və bununla da dünya ictimaiyyətini aldatmaq niyyəti daşıyan kimdir. Erməni deputatlar ictimai fikri də münaqişəni guya həll edilməmiş kimi saxlamaq istəyirlər.

Erməni deputat çıxışına Türkiyənin xarici işlər nazirinə qarşı böhtanla dolu ittihamlarla başladı. Azərbaycan nümayəndə heyətinin üzvləri Ermənistan deputatının yalanını, ölkəsinin siyasətinin xalqın milli maraqlarına zidd olması, eləcə də qardaş Türkiyəyə qeyri-obyektiv, yalan, böhtanla dolu çıxışını ifşa etdilər. Çıxışlarımızda ölkəmizin həyata keçirdiyi konkret addımlar haqqında məlumat verdik.

Lakin erməni deputat səs-küy salmağa başladı və AŞPA Prezidenti ona "səsinizi kəsin" deməyə məcbur oldu. Sonda erməni deputat guya inciyib deyə zalı tərk etməli oldu. Ancaq erməni deputatlar yaxşı gördülər ki, artıq avropalı deputatlar onları dəstəkləmir. AŞPA-dakı parlamentarilər də artıq sülhdən danışmağın vaxtı olduğunu bildirirlər.

Ermənilər dünya ictimaiyyətini aldatmaq istəsələr də, sonda öz tələlərinə özləri düşdü. Regionda birinci olmaq istəyirdilər, amma Ermənistan regionun kapitulyasiya aktını imzalamış ərazisidir. Gələcəkləri ola bilər, amma bir şərtlə, Azərbaycanın regionda yaratdığı, təklif etdiyi reallığı qəbul etməlidirlər. Ölkəmizin təklif etdiyi prinsiplər əsasında siyasətlərini təşkil etməlidirlər. Biz onlarla bu haqda söhbət etməyə hazırıq. Onlar bunu başa düşərək, bu istiqamətdə hərəkət etsələr, hər şey yaxşı olacaq. Ancaq başqa istiqamət götürsələr, bu, onlara baha başa gələcək.

Azərbaycan Respublikası Prezidentinin dediyi kimi, əgər Ermənistan bizim ərazi bütövlüyümüzü tanımasa, biz də onların ərazi bütövlüyünü tanımayacağıq.

> ***Heydər Əliyevin adı ilk növbədə, Azərbaycan xalqını siyasi-mənəvi böhrandan, müstəqil Azərbaycan dövlətini isə parçalanmaqdan və yox olmaqdan xilas etmiş dövlət başçısı kimi xarakterizə olunur. Ardınca isə gördüyü işləri simvolizə edən bir qism gerçəklər sırası gəlir: müstəqil Azər-baycan dövlətinin banisi və böyük qurucusu, Azərbaycançılıq təlimini müstəqil dövlətin ideologiyası səviyyəsinə çatdırmış qüdrətli lider, Azərbaycan Respublikasının siyasi ideoloji və iqtisadi-mədəni inkişaf konsepsiyasının möhkəm əsaslarını yaradan qətiyyətli şəxsiyyət!***

# ƏMƏLDƏN ZƏFƏRƏ, YAXUD HEYDƏR ƏLİYEVİN QARABAĞ SİYASƏTİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin dövlətçilik təlimini öz siyasi-ideoloji baxışları, qətiyyəti və uzaqgörənliyi, həmçinin yeni tarixi epoxanın reallıqları və daha böyük gələcəyə ünvanlanmış ideyalarla zənginləşdirərək çağdaş zamanın səsi və sözü olmağı bacardı. Bu söz sahibliyinin ən gözəl təzahürü isə Qarabağ oldu. 2020-ci ildə aparılan 44 günlük haqq savaşımız və qazanılan zəfər təbii ki, Ali Baş Komandan İlham Əliyevin gücü idi. Amma bu da faktdır ki, həmin gücün, həmin fəthin Heydər Əliyevə gedib çıxan bir çox mühüm siyasi-ideoloji, ideya-mənəvi səbəbləri və mənbələri vardır. Bu mənbələr hansılar idi?



**ELNARƏ AKİMOVA**
**YAP İdarə Heyətinin üzvü, filologiya elmləri doktoru, dosent**

Heydər Əliyev Azərbaycanın müstəqilliyi üçün ən böyük təhlükənin Qarabağ müharibəsi olduğunu bilirdi. Ona görə bütün siyasi fəaliyyəti ərzində bu məsələni prioritet olaraq gündəmdə saxlayırdı. Ümummilli lider 2001-ci ilin fevralında Parlamentdə Dağlıq Qarabağ problemi ilə bağlı ictimai dinləmələr zamanı çıxışında belə bir rəqəm səsləndirmişdir: "Mən 1993-cü ildən başlayaraq, müxtəlif dövlətlərin 68 başçısı ilə 485 görüş keçirmişəm!". Bu görüşlərin hamısında ana mətləb, əsas məsələ Qarabağ probleminin həlli idi. Heydər Əliyev sülh naminə, işğalçı Ermənistan ordusunu Azərbaycan torpaqlarından dinc yolla, beynəlxalq ictimaiyyətin və böyük dövlətlərin təzyiqi ilə çıxarmaq üçün əlindən gələn hər şeyi etdi, bütün mütərəqqi addımları atdı. Ümummilli lider bu addımları hakimiyyətinin birinci dövründə, Kommunist Partiyasının ən mötəbər vəzifəsində əyləşən zamandan etibarən atmağa başlamışdır.



1990-cı il ilin iyununda "Ulduz" jurnalına verdiyi müsahibədə Heydər Əliyevin belə fikirləri yer alır: "1969-cu ildə Birinci katib seçiləndən bir ay sonra Ermənistan KP MK-nın birinci katibi Anton Koçinyana zəng vurub onunla görüşmək istədiyimi dedim. Görüşümüz Qazax rayonu ilə İcevan rayonunun sərhədində oldu. Mən məsələni qəti qoydum və Koçinyana təklif etdim ki, Ermənistandakı millətçi adamları öz ərazi iddialarından çəkindirmək üçün əməli, konkret işlər görsün".

Heydər Əliyev xatırlatdığım müsahibəsində deyirdi ki, sonralar bu görüşün təsiri hiss olundu. Deməli, Heydər Əliyev Azərbaycanda rəhbərliyə başladığı ilk günlərdən etibarən erməni millətçiləri ilə savaşmalı olmuşdur. Sovetlər dönəmində bu proseslər, Qarabağla bağlı keçirilən görüşlər, aparılan söhbətlər təbii ki, cəmiyyətə açıqlanmırdı, amma tarix sübut edir ki, erməni millətçilərinin Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş çirkin fəaliyyəti hər zaman Heydər Əiyevin sərt müqaviməti ilə rastlaşıb.

Bu kontekstdə maraq doğuran faktlar çoxdur. Dağlıq Qarabağ üzərində nəzarət 1969-cu ildən başlayaraq bir an belə olsun Heydər Əliyevin diqqətindən kənarda qalmayıb. Məsələn, 1970-ci illərdə Qarabağda böyük siyasi proseslər cərəyan edib. Heydər Əliyevin xatırlatdığımız müsahibəsində bildirilir ki, 1975-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin plenumunda bəzi erməni millətçi ünsürlər tənqid olundu. Bu isə o demək idi ki, Heydər Əliyev Azərbaycanın torpaq bütünlüyünü qorumaq üçün siyasətin mümkün olan bütün üsullarından istifadə edirdi. Təsəvvür edin, Qarabağ erməniləri Ermənistandakı millətçi ruhlu adamların Qarabağda sabitliyi pozmağa çalışdıqlarına dair konkret faktlar gətirir, hətta, plenumda Zori Balayanın çirkin millətçi fəaliyyəti də, daşnak Andronikin xalq qəhrəmanı kimi təbliğ olunması da kəskin tənqid olunurdu. Heydər Əliyev xatırladırdı ki, həmin plenumdan iki ay sonra Moskvada Ermənistan KP MK-nin birinci katibi Dəmirçiyanla dörd saat söhbət etdim. Və ona bildirdim ki, Dağlıq Qarabağın problemlərini Azərbaycanın öz rəhbərliyi həll etməlidir. Dəmirçiyana dedim ki, "Qarabağın işlərinə ayrı-ayrı şəxslərin qarışması ümumi münasibətimizə ancaq ziyan vura bilər və biz buna yol verə bilmərik"...

Heydər Əliyev "Ulduz" jurnalına verdiyi həmin müsahibəsində milli birlik və milli vəhdət məsələsini də qaldırırdı. Azərbaycanda siyasi parçalanmaların nə qədər böyük fəsadlar doğurduğunu faktlarla göstərirdi: "Bizim respublikanın siyasi rəhbərliyində birliyin olmaması, öz şəxsi mənafeyinə görə başqasını satmaq, ona millətçi damğası yapışdırmaq və s. xoşagəlməz hallar millətin vəhdətini pozub. Tarixi izləsəniz görərsiniz ki, respublikamızın başına bəlalar belə şeylərdən gəlib. Mircəfər Bağırovun ətrafındakılar kimlər idilər? Ermənilər 1937-38-ci illərdə adamlarımızı, xüsusən ziyalılarımızı qıranlar kimlər idilər? Qriqoryanlar, Markaryanlar. Onların əli ilə Hüseyn Cavid, Yusif Vəzir Çəmənzəminli məhv edilib".

1991-ci ildə Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilmiş Heydər Əliyevin Ali Sovetdəki ilk çıxışında siyasi həyatımız, siyasi tariximiz baxımından hədsiz maraqlı bir detala diqqət çəkmək istəyirəm. Əliyev həmin çıxışında Qarabağ məsələsinə yanaşmanın siyasi istiqamətini müəyyənləşdirir: "Hesab edirəm ki, Dağlıq Qarabağda vəziyyətin normallaşdırılması - məsələnin dar çərçivədə qoyulması deməkdir. Azərbaycanın ərazi bütövlüyünün bərpa oluması - məsələ belə qoyulmalıdır və biz bunun üçün çarə, çıxış yolu tapmalıyıq".

Eyni zamanda, Heydər Əliyev həmin çıxışında konseptual bir məsələ qaldırırdı. "Bəs nə cür oldu ki, 1988-ci ildə Azərbaycan torpağının bir hissəsi əldən getdi?"

Yəni Heydər Əliyev 1988-1990-ci illərin daha konseptual təhlilinin aparılmalı olduğunu təklif edirdi: "Bu, tarixi məsələdir. Azərbaycan xalqının tarixində ən çətin, ən ləkəli dövrdür. Gələcək nəsillər, hətta biz Dağlıq Qarabağ Muxtar Vilayətində hakimiyyəti bərpa etsək də, torpaqlarımızı geri qaytarsaq da, mütləq bu məsələnin baş verməsini, bu üç il müddətdə gedən prosesləri təhlil edəcəklər".

Ardı Səh.12

Əvvəli-Səh-11

# ƏMƏLDƏN ZƏFƏRƏ, YAXUD HEYDƏR ƏLİYEVİN QARABAĞ SİYASƏTİ

Əliyev təkid edirdi ki, bunu gələcək nəsillərin öhdəsinə buraxmaq lazım deyildir. "Gərək müəyyən edilsin: harada, kim hansı günahı işləyib, nə cür olub, nə təhər olub ki, xalq belə acizlik göstərib, öz torpağını əldən verib".

O dövrdə hakimiyyətdə olanlar və onların yaxın çevrələri Heydər Əliyevi "köhnə palan içi sökməkdə" qınayırdılar. O isə cavab verirdi: "Mən köhnə palan içi sökmürəm, həqiqəti bir daha yada salıram. Balayan da, Poqosyan da, Dadamyan da bizim respublikadan deputat seçildi və onlar orda (SSRİ Ali Sovetində - E.A.) Azərbaycan Respublikasına daha dərindən xəyanət etmək üçün böyük hüquqlar əldə etdilər".

Bütün bunlar nə üçün baş verdi? Heydər Əliyev bütün bu sualların cavablandırılmasını istəyirdi. Niyə Volskinin idarəsi vaxtında Xankəndindən on beş min azərbaycanlı qovulub, niyə 1988-ci ildə Xankəndində 250 azərbaycanlının evinin yandırılması ilə bağlı cinayət işi yalnız 1991-ci ildə qaldırılır və s. Heydər Əliyev Azərbaycan siyasilərini xəbərdar edirdi ki, belə davam etsə, "biz bir neçə il də Dağlıq Qarabağda Azərbaycanın hakimiyyətini bərpa edə bilməyəcəyik. Unutmayın ki, Dağlıq Qarabağ Fələstin probleminə çevrilə bilər".

Heydər Əliyev Azərbaycan Ali Sovetindəki çıxışında 1920-ci illərdən etibarən Naxçıvan torpaqlarının bir qisminin də ermənilərə verilməsini xatırladıb, yeni ideya ilə çıxış edirdi: "Bir Dağlıq Qarabağ məsələsi yox, bütün 1920-ci ildən indiyədək Azərbaycan ərazisindən Ermənistana verilmiş torpaqların hamısının haqq-hesabı aparılsın. Hansı dövrdə, hansı sərhəd sahəsində, hansı torpaqlar verilib? Bu torpaqların hansı qərarlarla, kim tərəfindən verilməsi müəyyən olunsun. Və biz Ermənistana qarşı artıq müdafiə mövqeyində yox, hücum mövqeyində duraq".

Bu, ulu öndərin tarix qarşısında cavab verməli olacaq şəxsləri sorğulamaq cəhdi ilə bərabər, xalqı gələcək təhlükələrdən qorumaq, onu unutqanlıq bəlasından xilas etmək üçün etdiyi çabalar idi. Xalqın öz tarixini, milli müəyyənliyini dərk etməsi onun üçün əhəmiyyətli məsələ idi, o mənada ki, mənəvi qüdrəti tükənmiş millətin öz nicatını axtarmasının çətinliyini bilirdi. Müharibə cəbhəsində təbəddülat dövrü başlanan 1994-cü ilin yazında qüdrətli siyasi nüfuzu və böyük dövlətlərin müdaxiləsi ilə Heydər Əliyev atəşkəsə nail olanda da bunu qazanılan gələcək zəfərimiz üçün gərək olan nəfəs dərimi olduğunu yaxşı anlayırdı. Müstəqilliyini yenicə qazanmış, amma qəfil meydana çıxan Qarabağ faciəsi, ard-arda itirdiyi torpaqlar, üzləşdiyi sarsıntılarla bağlı mənəvi-psixoloji deqradasiyaya məruz qalmış xalqın özünə gəlməsi, kor Edip kimi ayağa qalxıb yeriməsi üçün belə bir nəfəs dəriminə ehtiyac vardı. Bu da savaş idi əslində. Amma bu savaş artıq diplomatik danışıqlar müstəvisində aparılacaqdı. Azərbaycanın haqq səsinin dünyaya çatdırılması, beynəlxalq aləmdə tanıdılması, dövlətin iqtisadi və hərbi potensialının gücləndirilməsi, eyni za-manda ideologiya və mənəviyyat cəbhəsində strateji hədəflər bəlləmək üçün hərtərəfli siyasi iradə və məfkurə bütövlüyü müəyyənləşməliydi. Analitik baxışın dramatizmi gücləndikcə idrakın, düşüncənin şüuraltı axını sürətlənəcəkdi. Bunlar olmadan, xalqın oyanışı mümkün deyildi. Heydər Əliyevin milli ruhun dirçəldilməsi yönündə xidmətləri bu mənada, ölçüyəgəlməzdir. Təsadüfi deyil ki, Azərbaycan yazıçılarının 1997-ci il oktyabrın 31-də keçirilmiş X qurultayında Heydər Əliyev çıxış edərək, bütün digər sahələr kimi, ədəbiyyatı da Qarabağ müharibəsi mövzusuna həssas olmağa səsləmişdir.

Mərhum şair Bəxtiyar Vahabzadə "Haqqın, ədalətin səsiylə yazıram" müsahibəsində jurnalistin "müstəqil dövlətin müstəqil siyasəti sahəsində işləriniz necədir", - sualına cavab verərkən, Heydər Əliyevin siyasi iradəsinə istinad edərək bildirir: "Yadınızdadırsa, Ali Sovetin ilk sessiyasının iclaslarının birində Heydər Əliyev dedi ki, mənim Qarabağ üzrə konsepsiyam var və bu problemin həlli yollarını göstərmək istəyirəm".

Vahabzadənin "Qayıdış" kitabında bu məsələyə daha dərin, daha siqlətli nüfuz var. Milli etnik məsələ, ermənilərin Qarabağ məsələsinə çoxdan hazırlığı, bunun üçün Heydər Əliyevin vəzifədən uzaqlaşdırılması və s. : "...ermənilər Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdırıldıqdan sonra fəaliyyətə başladılar. Zori Balayan Ermənistanda çıxan bir kitabda yazır: "Əliyev getdi, bəs indi biz nəyi gözləyirik?" Nə qədər ki, Heydər Əliyev Bakıda hakimiyyətdə idi, daha sonra Siyasi Büronun üzvü idi, düşmənlərimiz açıq hücuma keçə bilmirdilər".

Bunun nə qədər dəqiq fikir olması o qədər də uzaq olmayan tariximizdir. Heydər Əliyevin sovet hakimiyyəti dövründə rəhbər ikən imza atdığı qərarlar, azərbaycançılıq ideologiyasının alt qatda pərvəriş tapıb yaşaması, milli mənlik və kimlik şüurunun dirçəlişi naminə gördüyü misilsiz işlər onun Var olduğu bir dönəmdə hansısa tənəzzül, iflas və yüksək məqamlarına yer olmayacağının şübhəsiz sübutu idi.

Bu il möhtərəm Prezidentimizin sərəncamı ilə Şuşa ili elan edilib. Heydər Əliyev hakimiyyətdə olduğu bütün zaman kəsimlərində Qarabağa, Şuşaya münasibətdə gözəl tarixi mövqe sərgiləmiş, Şuşanın yalnız mənəviyyatımızın deyil, tariximizin, dövlətçiliyimizin, dilimizin, diriliyimizin qalası olduğunu sübut etmək naminə müstəsna işlər həyata keçirmişdir. 1977-ci ildə Şuşa şəhərinin tarixi hissəsini tarixi-memarlıq qoruğu elan etmək, daha sonra, 1982-ci il, yanvarın 14-də Şuşada Vaqif məqbərəsinin ucaldılması onun yalnız mənəviyyata, mədəniyyətə qoyduğu böyük abidə deyildi, həmçinin bu qədim yurda tarixi mövqe qazandırmaq amalının rəmzi idi. Həsən Həsənovun "Gələcək haqqında... xatirələr" məqaləsində bu məqamla bağlı maraqlı epizod yer alır: "Bir dəfə Heydər Əliyev gözlənilmədən məndən soruşdu: "Sən şair Vaqifi tanıyırsanmı?" Mən cavab verdim: "Əlbəttə, tanıyıram". O, mənə diqqətlə baxdı və dedi: "Yox, sən hamısını bilmirsən". Sonra söhbət bizim cari kommunist və beynəlmiləlçi vəzifələrimizdən uzaq mövzuya keçdi. Heydər Əliyev dedi ki, Şuşada Vaqifin məqbərəsini tikməyi qərara alıb. Məqbərənin layihəsi hazırlanır, yer seçilib, tikinti başa çatandan sonra məqbərənin təntənəli açılışını və Vaqif Poeziya Bayramını keçirmək nəzərdə tutulur. Heydər Əliyev sözünə davam edərək dedi: "Sən bu məsələləri ən yaxın vaxt üçün prioritet məsələ kimi qəbul etməlisən. İstəyirəm ki, sən mənim əsas məqsədimi biləsən. İndiki halda Vaqif bizim üçün sadəcə şair, məqbərə sadəcə qəbirüstü abidə, bayram sadəcə şeirlər oxumaq deyil, Vaqif bizim üçün Azərbaycanın dövlət xadiminin rəmzidir və belə də olacaq. Şuşadakı məqbərə bizim üçün Qarabağ xanlığının timsalında Azərbaycan dövlətçiliyinin rəmzi, poeziya bayramı bu torpaqda Azərbaycan dilinin əbədi təntənəsinin rəmzidir".

Akademik Bəkir Nəbiyevin məlumatına görə Molla Pənah Vaqifin Şuşadakı heykəlinin açılışında vilayətin o zamankı bütün erməni rəhbərliyi, ziyalıları iştirak edib. Heydər Əliyev Böyük Azərbaycan şairi Vaqifin timsalında Qarabağda XVIII əsrin ortalarında məskunlaşan ermənilərə başa salırdı ki, torpağın əsl sahibləri, onun təəssübünü çəkənlər, onun şöhrətini dünyaya yayanlar kim-lərdir. Heydər Əliyevin iradəsilə Şuşada ucaldılan Vaqif məqbərəsi yalnız konkret bir şairin abidəsi deyildi, bu məqbərə daha çox, türk-azərbaycanlı ruhunun əsrlər boyu Qarabağda hakimiyyətinin simvolu idi, bu torpaqda yaranmış təkrarsız sənətin simvolu idi.

* * *

2018-ci ildə Ümummilli lider Heydər Əliyevin obrazını əyaniləşdirən əsərlər haqqında apardığım tədqiqatda yekun olaraq belə bir fikir bildirmişdim: "Heydər Əliyev cəmiyyətimizlə bahəm ədəbiyyatda da başlanan yeni epoxanın təməlini qoyan, onun gəlişməsinə təkan verən tarixi şəxsiyyətdir. Ona görə haqqında yazılan mətnlərin bəlkə də hələ Ümummilli liderin obrazını bütünlüyü ilə yaratmağa gücü yetmir. Heydər Əliyevin obrazı ən istedadlı mətndən belə irəlidə durmağı bacarır. Görünür, Zamanın fövqünə, ucalığına qalxmış İnsanlar üçün ən gözəl əsəri elə Tarixin özü yaradır".

Bəli, zaman ötür, ötüb keçən bu illər ərzində Heydər Əliyevin imza atdığı bütün işlərin mütərəqqi, işıqlı davamını görüb heyrətlənməyə bilmirik. Dövlətin rəmzinə çevrilmiş ilk siyasi lider, Azərbaycanın siyasət dilini dünyaya təlim edən ilk Azərbaycanlı olaraq bu böyük şəxsiyyətin gördüyü əməllər sırası bariz şəkildə meydandadır. Bu əməllərin ən böyüyü, ən ölçüyəgəlməzi isə Qarabağdır. Qarabağ məsələsinin həlli istiqamətində gördüyü işlər ümummilli liderin nə qədər prinsipial, haqq və ədalət istəklisi, o cümlədən sülhpərvər olduğunun sübutudur. Onun bu günə istiqamətlənmiş müdrik siyasəti, nəhəng masştablı fəaliyyəti olmasaydı, 2020-ci ildə müharibəni qazanmaq, böyük zəfərə imza atmaq çətin olardı. Ali Baş Komandan İlham Əliyev ona görə böyük zəfəri qazana bildi ki, ilk növbədə, tarixə və zamana Heydər Əliyevin üslubunda müraciət etdi.

## Zəfər Qurultayının Şuşada keçirilməsi böyük əhəmiyyət kəsb edir



**Almaz Həşimova**
**YAP Füzuli rayon təşkilatının sədri**

Dünya Azərbaycanlılarının V Qurultayının məhz Şuşa şəhərində keçirilməsi həm mənəvi, həm də siyasi baxımdan böyük əhəmiyyət kəsb edən bir hadisədir. Şuşa təkcə ölkəmizdə deyil, bütün dünyada yaşayan Azərbaycanlıların doğma şəhəri olaraq şəhidlərimizin qanı-canı bahasına işğaldan azad edilmiş, xalqımızın, dövlətimizin tarixi Zəfərinin ən möhtəşəm mücəssəməsi olmuşdur. Prezident İlham Əliyevin öz çıxışında dediyi kimi, aprel ayının 22-də dünya azərbaycanlıları Şuşada özlərinin Zəfər qurultaylarını reallaşdırdılar. Çünki Vətən müharibəsində əldə olunmuş tarixi Zəfərdən sonra dünya azərbaycanlıları ilk dəfədir ki, bir yerə toplaşaraq, qurultay keçirdilər.

Bu mötəbər tədbirin məhz Şuşa şəhərində baş tutması ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayında Ulu Öndərin dediyi tarixi sözlərin gerçəyə çevrildiyini nümayiş etdirdi. Ulu Öndər Qarabağ problemi ilə bağlı öz fikirlərini də bildirmişdi ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba yurduna qayıdacaqdır. Bu gün Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu Ulu Öndərin bu sözlərini gerçəyə çevirdi. Qarabağ münaqişəsinin həlli Azərbaycanın qarşısında duran başlıca vəzifə idi. Azərbaycan xalqı 30 il davam edən işğala son qoymaq üçün öz Prezidentinin ətrafında birləşdi, birliyini, iradəsini və gücünü ortaya qoydu, ədaləti, beynəlxalq hüququ bərpa etdi. Şuşa şəhəri xalqımız üçün son dərəcə əziz, müqəddəs bir məkandır və bu şəhərə olan sevgi, bağlılıq hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Şuşa milli mədəniyyətimizin, incəsənətimizin beşiyidir.

Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən imzalanmış üçtərəfli bəyanatla Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu. Əslində Ermənistan üçün bir kapitulyasiya aktı mahiyyəti daşıyan bu bəyanat böyük tarixi əhəmiyyət kəsb edir. Azərbaycan Prezidentinin polad iradəsi, Azərbaycan Ordusunun yenilməz gücü və əlbəttə ki, Azərbaycan xalqının sarsılmaz birliyi Ermənistanı bu sənədi imzalamağa məcbur etdi. Möhtərəm dövlət başçımızın da dediyi kimi, Paşinyan bu sənədi öz xoşu ilə imzalamadı. Dəmir yumruğun hesabına imzaladı. Bu möhtəşəm tarixi zəfər Cənubi Qafqaz regionunda yeni reallıqlar yaratdı və bundan sonra artıq bütün dünya Azərbaycanın müəllifi olduğu bu reallıqlarla hesablaşmaq məcburiyyətindədir.

Azərbaycan Ordusu müharibə dövründə heç zaman hərbi cinayət əməllərinə əl atmayıb və müharibəni ləyaqətlə aparıb. Ermənistan döyüş meydanında məğlub oldu. Lakin bu gün yenə də bəzi qüvvələr tərəfindən Ermənistanda revanşist əhval-ruhiyyəsi qızışdırılır, erməni faşizminin yenidən dirçəldilməsinə cəhdlər olunur. Prezident İlham Əliyev Zəfər Qurultayındakı çıxışında vurğulayıb ki, Azərbaycan xalqı erməni faşizminin törətdiyi vəhşilikləri heç zaman unutmamalıdır: "Azərbaycan erməni faşizminin vəhşiliklərinin nəticələrini bütün dünyaya daim xatırlatmalı və bu bəlanı yenidən region üçün təhdidə çevirmək istəyən qüvvələrə qarşı beynəlxalq həmrəyliyi təmin etməlidir. Məhz bu yönümdə də bütün dünyada yaşayan soydaşlarımızın birliyi, həmrəyliyi bizim ən güclü silahımız olmalıdır. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim bölgədə erməni faşizmi yenidən baş qaldırsın. Bunu hər kəs bilməli və Azərbaycanın görə biləcəyi əks-tədbirlərin Ermənistana çox baha başa gələcəyini də aydın şəkildə dərk etməlidir".

# Bayraq yandıran ruhi xəstələr və İRƏVANA dönəcək AZƏRBAYCANLILAR!











### Erməni revanşistlərdə faşizm ideologiyası mövcuddursa, Azərbaycan xalqında bu ideologiyanı məhv etmək gücü-qüdrəti vardır!

Ermənilərə bayrağın yandırılmasının doğru qərar olmadığını anlatmaq 6 nömrəli palatadakı xəstəyə (psixonevroloji dispanserlərdə ruhi xəstələr üçün xüsusi otaq) onun Napaleon olmadığını anlatmaq kimi bir şeyə bənzəyir.

Və əgər bunu kütlə edirsə, onda həmin kütlənin təmsil olunduğu millətin gələcəyinə ümidsiz baxırsan. Dəqiqləşdirirsən, hətta 100% əmin olursan ki, belələri həqiqətən də gorlarına sağ baş aparanlara oxşamırlar. Bir neçə gün əvvəl, aprelin 24-də İrəvanda Azərbaycan və Türkiyə dövlətlərinin bayraqlarının böyük canfəşanlıqla, coşqu ilə yandırılması və beləliklə, "öclərin alınması", xəyallarda "qələbənin qazanılması" görüntüsünün nümayişi həmin məxluqların insan deyil, ən yaxşı halda insanlığa namizəd olduqlarını daha çox sərgiləyir.

### Üstəlik, İrəvanın mərkəzində Hitlerə nökərçilik etmiş kollaboranist Qaregin Njdenin abidəsinin də ucaldığını xatırlasaq...

O cümlədən, əsasən keçmiş hakimiyyət təmsilçilərinin - Serj-Robert cütlüyünün Paşinyanı devirmək üçün başlatdıqları "mübarizənin" daha bir üsulu məşəllərlə etiraz yürüşlərinə çıxmalarıdır. Həmin yürüşlər isə keçmişin bir reallığını xatırladır - Almaniya faşizminin çiçəklənən dövrünü. Sovet adamları yaxşı xatırlayar, bir vaxtlar SSRİ-nin mərkəzi televiziyasında hər il 21 iyun və 9 may ərəfələrində İkinci dünya müharibəsinə həsr edilmiş bədii filmlərlə yanaşı, məxsusi olaraq "Adi faşizm" ("Obıknovennıy faşizm") adlı sənədli film göstərilirdi və həmin filmdə faşizm ideologiyasının məhz məşəl yürüşləri sayəsində güclənməsini əks etdirən kadrlar göstərilirdi.

Bax, bu gün Ermənistanda uzun illərdən bəri davam edən faşizm ideologiyası da buna bənzəyən bir hal kimi qiymətləndirilə bilər. Üstəlik, İrəvanın mərkəzində Hitlerə nökərçilik etmiş kollaboranist Qaregin Njdenin abidəsinin də ucaldığını xatırlasaq, bu zaman hər şey öz yerini tutar. Və beləliklə, Ermənistanı bürüyən məşəl yürüşü faşist Almaniyasının məşəl yürüşləri ilə bilavasitə assosiativ paralellik yaradır.

### Əcəba, 6 nömrəli palatanın erməni sakinləri Azərbaycanla Türkiyənin bayraqlarını yandırıblar, yoxsa sülhə və tərəqqiyə aparan yolun üzərindəki körpünün möhkəmlənməmiş dayaqlarını?

İndi bütün bunlarla yanaşı həm də belə bir sual verilə bilər ki, əcəba, 6 nömrəli palatanın erməni sakinləri Azərbaycanla Türkiyənin bayraqlarını yandırıblar, yoxsa sülhə və tərəqqiyə aparan yolun üzərindəki körpünün möhkəmlənməmiş dayaqlarını? Təbii ki, yandırılan sülhə və inkişafa aparan körpüdür, amma eyni zamanda, yandırılan, oda vurulan həm də elə həmin xəstə məxluqların öz taleləri, gələcəkləridir.

Yeri gəlmişkən, diqqət çəkən məqamlardan biri də qondarma xrsitian adından yalnız öz kirli idbarlı məqsədləri üçün istifadə edən erməni apostol kilsəsinin bayraqların yandırılmasına qarşı ən azından yüngül irad bildirməməsi də oldu. Bu da sübut etdi ki, başqalarının torpaqlarına ərazi iddialarının sürülməsinin, müharibə fətvalarının verilməsinin təməlində dayanan daha bir qüvvə birbaşa erməni kilsəsi olub. Fakt budur ki, bütün dinlərin sülhə çağırışı mövcuddursa, ermənilərin "məzhəblərində" belə bir şey yoxdur, əksinə, müharibəyə çağırış kimi şeytani münasibətlər var!

Və bu gün rəsmi İrəvanın nə Bakıdan, nə də Ankaradan diplomatik etika xətrinə üzr istəməsi kimi fikri də mövcud deyil, eləcə də müxalifətçi revanşistlərin həmin əməllərinə qarşı hüquqi addımların atması mümkün görünmür. Əksinə, bu fonda Ermənistanda Azərbaycanın əzəli torpaqlarına qarşı iddialar daha da artmağa başlayıb. Belə olan vəziyyətdə Rusiyanın prezidenti Vladimir Putinin bir ifadəsi xatırlana bilər. Putin Rusiyanın Ukraynaya hərbi müdaxiləsi barədə danışarkən bildirib: "Əgər bu və ya digər respublika Sovet İttifaqına daxil olurdusa o öz başqajına nəhəng miqdarda rus torpaqları əlavə edirdi, ənənəvi rus tarixi ərazilərini. Sonra isə birdən-birə SSRİ-dən çıxmaq qərarını verirsə, onda gəldiyi əraziləri ilə də oradan çıxmalı və rus xalqının verdiyi hədiyyələri də özü ilə aparmamalıdır".

Məhz Putinin kontekstindən çıxış edərək biz də kiçik bir arayışı xatırladaq. Belə ki, 28 aprel 1918-ci ildə Qırmızı və ya Qlızıl Ordu Azərbaycan Demokratik Respublikasının (ADR) ərazisinə daxil olarkən ADR-in ərazisi 114 min kv. kilometr idi. SSRİ süquta uğrayandan sonra keçmiş Azərbaycan SSR-nin ərazisi 86,6 min kv. Kilometri təşkil etdi və ölkəmiz bu əraziləri ilə BMT-yə daxil oldu. Sual oluna bilər ki, bəs həmin ərazilər haraya yoxa çıxdı? Sualı məlumdur - indiki Ermənistana, özü də təxminən 27 min kv. kilometr ərazi və bu ərazilər 1920-ci ildən başlayaraq sonrakı müddətlərdə Kreml tərəfindən yaradılmış Ermənistan SSR-yə bağışlandı!

### Göyçə, Mehri, Zəngibasar, Dərələyəz, Uluxanlı, Vedibasar, Basarkeçər, Hamamlı və s...

Həmin vaxtlar Moskvada nəşr edilən kommunist-bolşevik qəzetləri yazırdılar: "Azərbaycan hökuməti xoşməramlı münasibət nümayiş etdirərək Zəngəzuru Ermənistana təhvil verdi". Və bu üsulla sovet hakimiyyəti ilbəil Azərbaycan torpaqlarını parçalayaraq onları Ermənistana ötürürdü, azərbaycanlı əhali isə kütləvi şəkildə öz doğma, tarixi yurd-yuvalarından köçürülmələrə məruz qalırdılar...

Artıq Azərbaycan cəmiyyətində də hər kəs inanır və ümid edir ki, Azərbaycan dövləti ermənilərin hələ də Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları ilə çıxış etmələrinə qarşı anidən, sərt və qətiyyətli addımlar ata bilmək qüdrətində və gücündədir. Yəni Qərbi Zəngəzurdan başlayaraq İrəvana qədər, eləcə də Göyçə, Mehri, Zəngibasar, Vedibasar, Uluxanlı, Dərələyəz, Basarkeçər, Hamamlı və s. kimi ərazilərimizə bu torpaqların əsl sahibləri geri qayıtmalıdırlar. O günün də uzaqda olmadığını isə biz əminliklə bilir və görə biləcəyimizə də ümid edirik!

***Rövşən RƏSULOV***

***P.S.** Bu anda Prezident İlham Əliyevin bir tövsiyəsini də xatırladıb. O, bugünlərdə Azərbaycan mediasına məsləhət gördü ki, Qərbi Azərbaycandakı tarixi toponimləri məhz tarixi adları ilə çəksinlər. Onun bu tövsiyəsi isə həm də Azərbaycan xalqına verilən çox mühüm bir mesaj idi...*

**Azərbaycan dövlətçiliyi tarixinin mürəkkəb, ziddiyyətli, saxtalaşdırılmış, qaranlıq və üzərindən sükutla keçilmiş dövrləri çox olmuşdur. Belə dövrlərdən biri də xalqımızın tarixinə birinci Respublika kimi daxil olmuş, müsəlman Şərqinin və türk dünyasının ilk demokratik, müstəqil Respublikası olan Azərbaycan Xalq Cümhuriyyətidir. Bu Cümhuriyyət xalqımıza XX əsrdə hüquqi dövlətçiliyin və sivil demokratiyanın ənənələrini bəxş edib.**

# 28 aprel süqutu: Qara tarix...



1918-ci ilin yazında Cənubi Qafqazda ictimai-siyasi vəziyyət gərgin idi. Cənubi Qafqazın ən güclü siyasi partiyasına çevirilmiş "Müsavat"ın nüfuzunun artması Bakı Sovetini ciddi narahat edirdi. "Müsavat" Partiyasının artan nüfuzunu qırmaq və Azərbaycanda milli demokratik hərəkatına divan tutmaq üçün çar Rusiyasının dəstəyi ilə S.Şamuyan başda olmaqla, bolşevik-daşnak birləşmələri 1918-ci ilin martında soyqırım törətdilər. Bu soyqırımla Azərbaycanın müstəqillik ideyalarına, milli demokratik qüvvələrə zərbə vurmaq cəhdləri baş tutmadı. Əksinə, bu hadisə Azərbaycan xalqı arasında milli birlik və müstəqil dövlətçilik ideyalarını daha da gücləndirdi.

1918-ci ilin 28 mayında çox gərgin, mürəkkəb beynəlxalq şəraitdə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti qısa bir müddətdə çox böyük işlər gördü. Azərbaycan Xalq Cümhuriyyətinin gərgin və mürəkkəb bir vaxtda yaranıb 23 ay fəaliyyət göstərməsi misilsiz qəhrəmanlıq idi. Çünki mövcud olduğu 23 ay ərzində Şərqin ilk Demokratik Respublikasını Rusiyada müstəmləkəçilik siyasəti həyata keçirən bolşeviklər yıxmağa cəhd edirdilər. Bolşeviklər Azərbaycanın daxilində təxribatçılıq fəaliyyətlərini gündən-günə genişləndirirdilər. Bolşeviklər iki dəfə - 1918-ci ilin dekabrında və 1919-cu ilin mayında Bakıda siyasi tətillər təşkil etməyə cəhd göstərdilər, lakin azərbaycanlı fəhlələrin həmin tətilləri boykot etməsi nəticəsində onların bu cəhdləri iflasa uğradı.

Bakı bolşevikləri gözdən pərdə asmaq məqsədilə "müstəqil" Azərbaycan Kommunist Partiyasının yaradılması ideyasını irəli sürdülər. Bu RK(b)P-nın yerli təşkilatı olaraq onun bütün qərarlarını yerinə yetirməli idi. Uzun sürən mübahisələrdən sonra PK(b)P-nın siyasi bürosu 1920-ci il yanvarın 3-də "müstəqil" Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının yaradılmasına icazə verdi.1920- ci il yanvarın 3-də təsis edilmiş Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının əsas məqsədi ölkədə vəziyyəti gərginləşdirmək, təxribat yolu ilə bolşevikləri hakimiyyətə gətirmək idi. Bu təxribatçı quruma milliyyətcə erməni, əli azərbaycanlıların qanına bulaşmış qatil A.Mikoyan başçılıq edirdi. Bu isə məsələnin əsl mahiyyətinin nə olduğunu açıqcasına göstərirdi.

Doğrudur, Azərbaycan Xalq Cümhuriyyətinin varlığı xarici qüvvələri qıcıqlandırırdı və nə yolla olur-olsun, bu Respublikanın varlığına son qoymağa çalışırdılar. Eyni zamanda, daxildə də vəziyyət ürəkaçan deyildi. Siyasi partiyalar və parlament fraksiyaları arasında qarşıdurmalar güclənmişdi. Bu çəkişmələri bir qütbündə "Müsavat" partiyası, digər qütbündə isə ""İttihad"çılar dururdu. Müxalifətdə olan "İttihad" partiyası aşkarca Sovet Rusiyası ilə hərbi ittifaq bağlamağı təklif edirdi. Partiyalararası çəkişmələrin güclənməsi və parlamentdə sosialist fraksiyasının pozuculuq fəaliyyəti nəticəsində 1920-ci il martın 30-da N.Yusifbəylinin başçılıq etdiyi beşinci hökumət kabineti istefa verdi. Yeni hökumətin təşkili M.H.Hacinskiyə tapşırıldı. O isə, kommunistlərlə danışıqlara girərək onlara yeni hökumətdə vəzifə təklif etdi. Kommunistlər yeni hökumətə daxil olmaqdan imtina etdi. Aprelin 22-də Hacinski yeni hökuməti yaratmağın mümkün olmadığı haqqında parlamentə məlumat verdi. Yeni hökumətin yaradılmasının ləngidilməsi, partiyalar arasında qarşıdurmanı daha da dərinləşdirdi. Bu da Azərbaycan hökumətinin siyasi böhranını son həddə çatdırdı.

Azərbaycan hökumətinə qarşı siyasi təzyiqləri gücləndirən Sovet Rusiyası milli hökuməti devirmək üçün bolşeviklərdən və Azərbaycan ərazisini işğal etməyə çalışan ermənilərdən istifadə edirdi.

Sovet Rusiyasının Azərbaycana hərbi müdaxiləsi artıq həlledici mərhələyə daxil olmaqda idi. Bakı bolşeviklərinin nümayəndə heyəti Mikoyan başda olmaqla, Azərbaycan xalqı adından XI Qızıl ordunu Azərbaycana dəvət etdi. Aprel ayının 25-dən 26-na keçən gecə XI qızıl ordu hissələri Azərbaycan Xalq Cümhuriyyətinin sərhədlərini keçdi. Yalama stansiyasında iki saatlıq döyüş Azərbaycan hərbiçilərinin məğlubiyyəti ilə nəticələndi.

Beləliklə, aprelin 27-də AK(b)P MK, RK(b)P Qafqaz diyar Komitəsinin Bakı bürosu və fəhlə konfransı adından hakimiyyətin bölşeviklərə təhvil verilməsi haqqında parlamentə ültümatum verildi. Axşam saat 11-də Azərbaycan parlamenti özünün son iclasını çağırdı və nahaq qan tökülməsinin qarşısını almaq məqsədilə hakimiyyəti müəyyən şərtlərlə Azərbaycan komumunistlərinə təhvil verdi. Belə ki, Azərbaycanın tam müstəqilliyinin qorunub saxlanması, AK(b)P-nin yaratdığı hökumətin müvəqqəti orqan olması, Azərbaycan siyasi partiyalarının tam sərbəst fəaliyyətin təmin edilməsi, Azərbaycan ordusunun saxlanması və XI Qızıl Ordu Bakıya daxil olması şərt kimi qoyuldu. Lakin hadisələrin sonrakı gedişatı göstərdi ki, bu şərtlər hamsı kağız üzərində qaldı. Azərbaycanın müstəqilliyi müəyyən vaxta qədər formal xarakter daşıdı.

Parlamentin qərarından bir neçə saat sonra Anadoluya getmək bəhanəsilə Biləcəri stansiyasına gəlib çatmış XI Qızıl ordu hissələri Bakıya daxil oldu. Bununla da, Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinə son qoyuldu və Azərbaycan yenidən Rusiya tərəfindən işğal edildi.

28 aprel işğalı gerçəkləşməyə bilərdimi?! Fəaliyyət göstərdiyi qısa müddətdə Azərbaycan dövləti gördüyü böyük işin dəyərini kütlələrə istənilən səviyyədə anlada bilmədi. Cümhuriyyətin daxilində muxtəlif qüvvələr tərəfindən müxtəlif iğtişaşlar törədildi. Təbii ki, bu da hökumət tərkibində parçalanmaya, bir neçə istiqamətdə mübarizə aparılmasına səbəb oldu. Müsavatçılar hökuməti tək qura bilmədilər, müxtəlif siyasi qüvvələrlə əməkdaşlığa getməli oldular. 5 dəfə kabinet dəyişikliyi baş verdi. Belə olduğu təqdirdə bolşevizm təhlükəsi gündən-günə artdı. Bolşeviklərin uydurduğu ideyalar sadə xalqı şirnikləndirdi. Hökumət daxilində sıx birlik olmadı, son məqamda satqınlıq halları da baş verdi. Həm daxili çəkişmələr, şəxsi düşmənçilik, həm də Azərbaycanın şimal sərhədlərinin müdafiəsiz qalması, Qafqaz bölgəsində yaranmış hərbi-siyasi vəziyyət, Sovet Rusiyasının beynəlxalq hüquqa zidd olaraq suveren dövlət olan Azərbaycana təcavüz etməsi, 28 aprel işğalını gerçəkləşdirdi. Bəli, bolşevik təcavüzü, erməni məkri, ABŞ və Avropa laqeydliyi Şərqin ilk demokratik respublikasının sonunu gətirdi.

28 aprel 1920-ci il tarixində Azərbaycan Xalq Cümhuriyyətinin Sovet Rusiyası tərəfindən işğal edilməsindən 102-il ötür. İşğalların ildönümü bayram günü kimi qeyd olunmur. Azərbaycan xalqının bədbəxtliyi onda oldu ki, 70 il aprel işğalını könüllü sovetləşmə kimi xalqımıza bayram etdirdilər. Bu, xalqımızın təməl hüquqlarının tapdalanması, ayaq altına salınması, xalqın milli mənliyinin, qürurunun məhv edilməsi demək idi.

28 aprel faciəsi xalqımızın çoxəsrlik tarixinin ən acı səhifələrindən biridir. Bu rejim özünün bütün varlığı ərzində Şərqdə ilk demokratik respublikanın bayrağını ucaldan qeyrətli soydaşlarımızla, onların haqq işinin davamçıları ilə mübarizə apardı. Lakin xalqın qəlbində yaşayan azadlıq atəşini söndürməyə müvəffəq olmadı. Xalq özünün istiqlal arzularını nəsildənnəslə ötürdü. Nəhayət, 1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini bərpa etdi, indiki Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi olduğunu ümumxalq iradəsi ilə təsdiqlədi.

***Aidə Musayeva,***
**ADUP-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin Humanitar FBK-nın müəllimi.**



Elçin Bayramlı

# Hər gün yalan danışın

Uzun zamandır ki, hamı gileylənir ki, bəs zəmanə korlanıbdır, adamlar yaman yalançı olubdur, heç kimə inanmaq olmur. Doğru buyururlar, cəmaətimiz son dövrlərdə yeni azara mübtəla olubdur- yalançılıq azarına. Gecə-gündüz hamı bir-birini aldadır. Bazarda, məktəbdə, nəqliyyatda, idarədə, zavodda, televiziyada, qəzetdə, lap elə parlamentdə...

Bazarda 1 kq əvəzinə sənə 800 qram meyvə çəkən alverçidən inciməyə dəyməz, axı o yetim də ona-buna haqq verəndən sonra özünə 5-10 qəpik çörək pulu qalmalıdır. Ya da "yumurtanı təzə gətirmişəm, öz həyətimdəndir" deyən arvada inanıb evdə köhnə lax yumurtanı yeyə bilməyəndə ona söyməli deyilsən ki? Adamın çörəyi yalandan çıxır.

Yainki, bir yeməkxanada oturub yemək yeyirsən, "şotda" sənə xeyli kələk gəlir, and-aman edir ki, bəs biz halal məhsul alırıq, ona görə də bahadır. İndi neyləmək olar, gərəkdir ki, bu yalanı udasan, yediyin yeməyi geri qaytara bilməzsən ki?

Ya da ki, bir dostundan kiçik bir miqdar pul istəyirsən, deyir ki, sən öl, özüm ölüm, Quran haqqı, Həzrət Abbas haqqı yoxumdur. Amma sabah eşidirsən ki sağlığına qismət olsun özünə bahalı maşın alıbdır. İndi yalan deyir deyə vurub onu öldürəkmi?

"Balam ölsün yalan deyirəmsə, öz inəyimin südüdür" deyən arvadın həyətində "stolovoy" zibilləri ilə qidalanan cəmi bir inəyi var, amma butun şəhərə süd, qatıq satır. İncəfara, onun süd, qatığı yaman yağlı olur. Bunun özü də bir əziyyətdir, get zibillikdən sellofan paketləri, plastik butulkaları yığ, sonra onu gətir ərit südə qat. Bəli, bu, tam bir əziyyətdir. Düzdü, bu əməli ilə başqalarının körpə uşaqlarını zəhərlərib sağalmaz bəlalara giriftar eləyir, amma bu arvad cənnətə düşəcəyinə əmindir. Deyir ki, mən namaz qılıram, Həccə, Məşədə getmişəm, kasıb-kusuba əl tuturam- bəzən onlara nisyə də verirəm.

Bu arvadın dediyinə görə, o dünyada bunu məhkəmə qarşısına çıxaranda ki, xalqı niyə zəhərləyirdin, cavab verəcək ki, bəs mən neyləyim, 250 manat pensiyanın 100 manatını kommunal xərclərə, 150 manatını da dərmanlara verib özüm acından ölüm? Bu yerdə ədalət məhkəməsinin boğazı quruyacaq, axı ilahi qanunlara görə də hər kəsin özünün müdafiə etmək, yaşamaq hüququ vardır. Beləliklə, də bu arvadı cənnətə salacaqlar.

Yainki, götürək bir həkimi. Ağır bir azara mübtəla olub çarə üçün onun yanına gedənlərə düzgün müalicə yazsa, ondan rüşvət almasa necə dolanar, lap acından ölər ki? Sən özün ol, bir xarici firmanın nümayəndəsi gəlib sənə desə ki, həmşərim, bəs xəstələrə filan dərmanları yazsan hər birində yarısı sənindir, neyləyərsən? Necə? Razı olmazsan?! Get özüvə ala! Bizdə 3 tuzdur.

Məgər sənin uşaqların "iqruşka" əvəzinə inək peyini ilə oynayır, yainki, arvadın toya qoyun dərisi geyib gedir, bəlkə sən yemək əvəzinə havayla dolanırsan? Keçməz, qədeş! 300 manatla sən vicdanını qoruya bilməzsən! Qorusan da, ailən acından ortalıqda ölər, camaat sənin cəmdəyinə tüpürər!

Uzun sözün qısası, bizdə bu bəla yoluxucu xəstəlik kimi bir çox vətəndaşlarımızı giriftar eləyibdir. Hətta, adam bir gün yalan danışmayanda özünü birtəhər hiss eləyir, elə bil ki, bir boynuyoğun tülüngü səni öz yalan danışmaqla tikdirdiyi villasında eşşək kimi işlədib, axırda da pulunu verməyibdir.

Bir para adamlar deyirlər ki, burada obyektiv səbəblər də vardır. Nöşün ki, indi əvvəlki zamana deyil, adamların çörəyi daşdan çıxır, ona görə də yalançıları qınamayın. Əmma mən bu kimi söhbətlərə heç inanmam. Nədən ki, əvvələ dünyada kasıblıq çəkən, müxtəlif növ bəlarara mübtəla olan xalq təkcə haman bu xalq deyil ki, bəs o birilər niyə belə həngamədən çıxmırlar?

Elə hesab edək ki, bu cəmaətin müəyyən bir hissəsinin başqa yolu yoxdur, o binəvalar məcburən bu cinayətdə bulunurlar, o tövrdə bəs bir para məmurlar, varlı cənablar, lap elə müğənnilər niyə xalqa yalan danışırlar? Məgər onların da balaları evdə acından ölür?

Xeyr, qadası, elə dögül. Nöşün ki, burda məsələ başqadır. Belə aşikar olur ki, problem bunların başqa yerindədir. İndi mən deyim sən qulaq as! Bu cəmaətin içində ki, kimi dindirərsən deyir ki, mən Allah adamıyam ha, o saat bil ki, yalan deyir. Bu məxluqlar bir-birini aldadır, badalaq vurur, oğurluq edir, qonşusu ac ikən yumşaq yorğan döşəkdə kababla doldurduğu qarnını sığallaya-sığallaya yatır.

Əşşi, qorxmayın, nə axirət məhkəməsi var, nə də yalan danışmağa görə kimisə rüsvayi-cahan eləmirlər. 5 günlük dünyadır, yeyin-için kef eləyin. Şəxsən həqir bəndəniz belə eləyir, hər gün yalan danışıram. Elə bu yazını da yalandan yazdım. Burada dediklərim bizim cəmiyyətdə olmur, ağzım... pardon, yəni, əlim öyrəşib, elə-belə bekarçılıqdan yalan yazdım. Ona görə də bəndeyi-həqirinizin günahından keçin. Yalan danışmaq elmi haqda əlavə suallarınız olsa, daim qulluğuzdayam.

***Fransa və ABŞ-ın imtina etməsindən sonra Rusiyanın Qarabağ nizamlanması və Azərbaycan və Ermənistan arasında sülh müqaviləsini niyə Qərblə müzakirə etməsi, Moskvanın Qərblə bu istiqamətdə əməkdaşlıq etməsi, Rusiya Xarici İşlər Nazirliyinin rəhbərinin onları Qarabağ istiqamətində "rusofob isteriyasında" ittiham etməsi, Moskvanın Cənubi Qafqazda nizamlanmada prioritetləri və sülhün əsas "təhlükəli" məqamları, Bakı ilə İrəvan arasında razılaşma kimi məsələlərlə bağlı Rusiya xarici işlər nazirinin keçmiş müavini (1990-1991) Andrey Fyodorov "Moskva-Bakı" platformasına müsahibəsində maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" istiqaməti çərçivəsində hazırlanıb.*

# Andrey Fyodorov: "Sülh prosesində əsas məsələ Azərbaycanın ərazi bütövlüyünün tanınmasıdır"

**- Andrey Vladimiroviç, düzünü desəm, bu gün Azərbaycanla Ermənistan arasında potensial sülh müqaviləsinin imzalanması ətrafında baş verənlər və bu məsələdə Moskvanın mövqeyi aydınlıq tələb edir. Bir tərəfdən, Rusiya sülh müqaviləsinə doğru hərəkətdə vasitəçilik etməyə hazır olduğunu bəyan edir. Digər tərəfdən, Aİ bu istiqamətdə fəallaşmağa başlayır və Moskva bunun ona uyğun olmadığını açıq şəkildə bildirir. Amma eyni zamanda Putin və Avropa Şurasının rəhbəri müqavilə prosesini müzakirə edirlər...**

- Nəticə əldə etmək baxımından- yəni Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması - məncə, bəli, Rusiya və Aİ potensial olaraq razılaşa bilər. Çünki əslində bu gün Rusiya nəticədə, kimin kömək edəcəyindən asılı olmayaraq, Bakı ilə İrəvan arasında sülhün imzalanmasında son dərəcə maraqlıdır. Düzünü desək, Ukrayna ətrafında yaranmış indiki vəziyyətdə bizə Cənubi Qafqazda yeni keskinləşmə qətiyyən lazım deyil - bu, yalnız diqqətimizi yayındırar. İndi iki stulda oturmaq bizim üçün çox çətindir, problemləri həll etməliyikhəm birincini, həm də ikincini. Üstəlik, birinci- Ukrayna ətrafındakı vəziyyət ikincidən- Cənubi Qafqazdan qat-qat kəskindir. Amma ikincisi bizim üçün əlavə qıcıqlandırıcı ola bilər. Ona görə də sülh müqaviləsi lazımdır. Əslində, müqavilənin bütün gələcək məzmunu artıq bizim əllərimizlə yaradılmışdır. Başqa sözlə, biz artıq çox iş görmüşük və bu sazişlərin həyata keçirilməsi üçün məsuliyyət daşıyırıq.

Hardasa biz Avropa İttifaqı ilə Ermənistan-Azərbaycan istiqamətində əməkdaşlıq edə bilərik, haradasa - yox. Mən tam etiraf edirəm ki, sonda belə çıxacaq ki, Azərbaycan və Ermənistan sülh sazişi imzalayacaq, Rusiya və Avropa İttifaqı isə imzalanmanın təminatçısı qismində çıxış edəcək. Və bu, əslində, ən pis seçim deyil. Çünki bu məsələdə Aİ də öz üzərinə öhdəlik götürəcək. Bu isə Avropa İttifaqının ayrı-ayrı ölkələrinin, ilk növbədə Fransanın ənənəvi erməni tərəfində oynamaq imkanını aradan qaldıracaq.

Eyni zamanda, bizim üçün əsas problem Bakı ilə İrəvan arasında razılaşmaya kimin vasitəçilik edəcəyi deyil, bu sülh müqaviləsinin son nəticədə necə görünəcəyi, məzmununun necə olacağıdır. Çünki gündəmin əsas məsələsi Azərbaycanın ərazi bütövlüyünün tanınmasıdır.

**- Amma Azərbaycan prezidenti bildirib ki, Ermənistan Bakının sülh müqaviləsinin əsasını təşkil etməli olan 5 təklifini qəbul edib və bu 5 bənddən 1-i ərazi bütövlüyünün qarşılıqlı tanınmasıdır. Rusiya Xarici İşlər Nazirliyi də ondan çıxış edir ki, hələlik danışıqlar bu 5 bənd əsasında aparılacaq.**

- Prinsipcə, bəli, Ermənistan bu 5 bəndi qəbul etdi. Digər tərəfdən, İrəvan Azərbaycanla sülh sazişində "Artsax"ı ayrıca bənd kimi görmək istərdi. İndi məsələ onunla nə etməkdir. Hamı yaxşı bilir ki, sülh müqaviləsi imzalansa, heç kimin geriyə dönüşü olmayacaq. Problem ondadır ki, tərəflər danışıqlar prosesi zamanı milli maraqlar baxımından mümkün olan hər şeyi sıxışdırmağa çalışırlar. Nikol Paşinyan çox çətin vəziyyətdədir. O, bəlkə də, indi hamıdan yaxşı başa düşür ki, sülh sazişinin imzalanması elə bir mərhələdir ki, ondan sonra hər şey, köhnə hekayə bitəcək və o, həqiqətən də özü üçün, Ermənistan üçün gələcək üçün "pəncərə" qoymaq istəyir. Bu "pəncərə" sülh sazişində ona Ermənistanda hakimiyyətdə qalmağa imkan verəcək və gələcəkdə lazım gələrsə, Azərbaycanla vəziyyətin gərginləşməsi üçün tətik rolunu oynaya bilər. Biz, Rusiyada, Aİ-dən fərqli olaraq, bu təhlükəli "pəncərələr"dən daha çox xəbərdarıq, lakin Avropa İttifaqı üçün onların heç bir xüsusi dəyəri yoxdur. Biz bu "pəncərələrin" təhlükəsini başa düşürük. Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin gələcəkdə "qara pişiyin" çıxa biləcəyi bu "pəncərələr" olmadan imzalanması bizim üçün vacibdir.



**- Paşinyan bir neçə həftə əvvəl beynəlxalq tərəfdaşların İrəvanı Qarabağın statusu ilə bağlı təzyiqi aşağı salmağa çağırdığını bildirib. İndi də müxalifət etiraz aksiyaları təşkil edərək Qarabağın statusu məsələsini manipulyasiya etməyə çalışır. Amma Qarabağın statusu məsələsi İkinci Qarabağ Müharibəsindən sonra əsas çoxtərəfli bəyanatların heç birində qeyd olunmayıb...**

-İndi bu məsələdə çox ciddi mübarizə gedir.

**- Bununla belə, siz sülh sazişinin imzalanmasında Rusiya ilə Aİ arasında birgə vasitəçiliyin mümkün olduğunu dediniz. Bəs Moskvanın Qərbin aidiyyatı olmayan yerə dırmaşmasına mənfi və başa düşülən reaksiyası buna necə uyğundur, gəlin bunu belə şərh edək. Yəni Aİ müdaxilə etməyə çalışır, amma Moskva əməkdaşlığa hazırdır?**

- Məşhur "Hazırın naziri" məsəli Aİ-nin Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı addımları ilə bağlı vəziyyətə uyğun gəlir. Moskva narazıdır, çünki Qarabağ nizamlanmasında ilkin olaraq bütün əsas işləri məhz Rusiya həyata keçirib. İndi də Avropa İttifaqı üçün nəyisə bir az cilalamaq çox sərfəlidir: bir iki söz və vergülləri yenidən yerləşdirin və deyin ki, biz buna nail olduq, amma Rusiya bacarmadı, amma biz buna nail olduq. Belə bir ssenari olduqca mümkündür. Hazırda hər şey bunun ətrafında gedir. Çünki başa düşürlər ki, biz indi başqa məsələlərlə məşğuluq. Rusiya bu istiqamətdən əl çəkməyəcək, amma yenə də bu istiqamətdə Qərblə konstruktiv qarşılıqlı əlaqə ola bilərsə, biz bunun əleyhinə deyilik. Və həmişə bir fürsət pəncərəsi buraxmağa hazırdır.

**- Yəni Putin Çarlz Mişellə sülh sazişi ətrafında danışıqların gedişatını müzakirə edir?**

- Sülh müqaviləsinin bütün müddəalarını bütün tərəflər tərəfindən adekvat şəkildə şərh etmək bizim üçün prinsipial olaraq vacibdir ki, heç bir uyğunsuzluq, fərqli şərhlər olmasın, biz bunu belə başa düşək, Ermənistan - belə, Azərbaycan - bu cür və Avropa İttifaqı - bu formada. Hər şey birmənalı, aydın şəkildə yazılmalıdır. Buna uyğun olaraq, hər şey bu axarda olacaqsa, yalnız o zaman deyə bilərik ki, tərəflər məsuliyyəti öz üzərinə götürürlər. Əks halda, əvvəl əldə etdiyimizi alacağıq.

**- ABŞ və Fransa ATƏT-in Minsk Qrupu çərçivəsində Rusiya ilə əməkdaşlıqdan imtina etdi, indi Minsk Qrupunun dağılmasından sonra mövqelərini dəyişən keçmiş həmsədrlər son həftələr Ermənistan və Azərbaycana səfərlər edir- eləcə də Aİ-nin xüsusi nümayəndəsi, həmçinin Rusiyanın xüsusi nümayəndəsi. Və hamısı təsadüfidir?**

-Bölgə diqqətdən kənarda qalmayacaq... Dediyim kimi, oyun bitməyib... Həm də nə oyun. Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi əslində Cənubi Qafqazın yalnız bir hissəsini sabitləşdirəcək. Məsələn, Gürcüstan bu sabitləşmədən kənarda qalacaq. Bu yaxınlarda mən Tbilisidə idim. Gürcüstan bu yay NATO-da son yaşıl işıq yandırmaq istəyir. Gürcüstan hakimiyyətinin Rusiyaya qarşı sanksiyalardan imtina etməsi isə sırf iqtisadi praqmatizmdir. Rusiya Xarici İşlər Nazirliyi bu gün Aİ və BMT-nin tələbi ilə Gürcüstanla Cenevrə danışıqlarının dayandırıldığını açıqlayıb. Əsas odur ki, indi Azərbaycan və Ermənistan üçün sülh müqaviləsi imzalansın. Bu, Cənubi Qafqazda sülh, inkişaf və sabitlik naminə regionda daha geniş nə isə qurmaq mümkün olacaq əsasdır. Əgər belə bir razılaşma olmasa, vəziyyət qeyri-müəyyənlikdə qalacaq.

**-Bu gün Rusiya Xarici İşlər Nazirliyinin MDB ölkələri departamentinin direktoru ilə müsahibə oldu. Cavabların bütün məntiqi isə ondan ibarətdir ki, bu gün Rusiya, xüsusən də geosiyasi çağırışlar, hücumlar fonunda Cənubi Qafqaz qonşuları ilə, o cümlədən Azərbaycanla Müttəfiqlik Əməkdaşlıq haqqında Bəyannamə və Bəyanatla daha da sıx əlaqələr qurmağa çalışır. Putin və Paşinyan tərəfindən 30 bənd- onlar birgə səylərlə çoxqütblü dünya quruculuğunun inkişafında qəbul edilib. Belə çıxır ki, Rusiya getdikcə daha çox Cənubi Qafqaz qonşularını və Qarabağ nizamlanmasını özünə yaxınlaşdırır - bu ətrafında məkanı gücləndirmək ideyasının davamı olaraq?**

- Əlbəttə, ona görə ki, biz Cənubi Qafqazı risklər platformasına deyil, sabitlik zonasına çevirməliyik. Şərqdə vektor var. Çünki aydındır ki, indi qərb istiqamətində sabitlik olmayacaq. Qərb cəbhəsində biz indi hər zaman qarşıdurma rejimində olacağıq. Ukrayna ilə bağlı yaxın aylarda nə baş verməsindən asılı olmayaraq, qarşıdurma modeli artıq ən azı bir neçə il qabaqda qurulub. Digər istiqamətlərdə - cənubda, Asiyada daha belə qarşıdurma çağırışlarının olmaması bizim üçün prinsipial olaraq vacibdir. Hamısı budur.

Azərbaycanla Ermənistan arasında sülh sazişi, nizamlanma bizim üçün təminatdır. Axı biz hər an eskalasiyaya müdaxilə edə bilmərik, biz yanğınsöndürən deyilik. Sülh müqaviləsi imzalamaq yanğını söndürmək deməkdir. Və sonra kiməsə onu yandırmaq çətin olacaq, xüsusən də düzgün yazıldığı təqdirdə.

**- Putin və Paşinyanın 30 bəndlik bəyanatında hazırkı beynəlxalq vəziyyət prizmasından danışarkən son dərəcə diqqətçəkən məqamlar var idi: Rusiya və Ermənistanın sanksiyalara, təhlükəsizlik arxitekturasının yumşaldılmasına mənfi reaksiyası da öz əksini tapıb. Eyni zamanda qarşılıqlı razılaşma var ki, iki dövlətin ərazisində üçüncü ölkələrin biolaboratoriyaları olmayacaq... Yəni burada da Rusiya göstərir ki, qonşularından öhdəliklər götürür- bir tərəfdən biz onlara yaxınlaşırıq, digər tərəfdən onlar Qərbdən getdikcə daha çox uzaqlaşırlar.**

-Əlbəttə. Amma bilirsiniz ki, burada Ermənistanla bağlı çətin məqamlar var. Bəzi erməni ekspertlər hesab edirlər ki, respublika hələ də Rusiyaya qarşı müəyyən sanksiyaları,- məsələn, Rusiya təyyarələri ilə bağlı- qismən tətbiq etməlidir. Burada hər şey o qədər də sadə deyil. Elə insanlar var ki, deyirlər ki, Rusiya, Ermənistan və Azərbaycan arasında nə olursa olsun, ABŞ da var- Ermənistan da ABŞ-ı unutmamalıdır. Ona görə də bizim üçün çox vacibdir ki, Ermənistandan bizə qarşı sanksiyalar tətbiq edilməyəcək və s. Bizdən əvvəl belə böyük, böyük klub yaranmışdı. Bu dolaşıqda bizim üçün Azərbaycanla Ermənistan arasında razılaşma çox önəmlidir. Düzgün qurulmuş müqavilə olsa, hamını dincələcək. Biz də daxil olmaqla. Başqa bir məsələmüqavilə imzalanandan sonra Paşinyan hakimiyyətdə qalacaqmı - şəxsən mənim üçün, bu barədə qəti danışmaq hələ çətindir. Bu çox ciddi məsələdir. Baxmayaraq ki, təbii ki, sənədin imzalanması ilə Paşinyan deyil, Ermənistan dövləti öz üzərinə müəyyən aydın öhdəliklər götürür, amma həyatda hər şey olur. Və bizim üçün prinsipial olaraq vacibdir ki, bu saziş Ermənistandakı vəziyyətin daxili siyasi inkişafından asılı olmayaraq işləsin. Paşinyan və ya başqa liderin hakimiyyətdə olmasından asılı olmayaraq...

**Müsahibə aldı - Nona Xoştariya**

***Tərcümə etdi - Elçin Bayramlı***

SƏS
28 aprel
2022-ci il

# Benzema bunu bacaran ilk futbolçu oldu




***Madrid "Real"ının ulduz futbolçusu Kərim Benzema UEFA Çempionlar Liqasında yeni rekorda imza atıb. Qol.az xəbər verir ki, fransalı hücumçu "Mançester Siti"yə yarımfinalda "Mançester Siti"yə uduzduqları (3:4)oyununda dubl etməklə buna nail olub.***

Benzema bir mövsümdə səfərdəki pley-off matçlarında eyni ölkənin klublarına 5 qol vuran ilk oyunçu kimi tarixə düşüb. O, daha əvvəl İngiltərənin digər təmsilçisi "Çelsi"yə səfərdə 3:1 hesabı ilə qalib gəldikləri 1/4 final mərhələsinin ilk oyununda het-trik etmişdi.

Qeyd edək ki, Benzema bu mövsüm "Real"ın heyətində 41 oyunda 41 qol və 13 məhsuldar ötürmə ilə yadda qalıb.

# Keyfiyyətli paltarları necə seçməli?



***Moda brendlərinin eko-məsləhətçisi Lucianna Tonti mağazalarda paltarların keyfiyyətini yoxlamağın sadə yollarını sadalayıb. SİA-nın əldə etdiyi məlumata görə, o, bu barədə "The Guardian" üçün köşə yazısında yazıb. Deməli Tontinin yazdığına görə, geyimlərin keyfiyyəti 1990-cı illərdən "sürətli moda"nın meydana çıxması ilə nəzərəçarpacaq dərəcədə aşağı düşməyə başlayıb.***

Bu hadisənin nəticəsi istehsalın və istehlakın aktiv artımı, eləcə də məhsulların maya dəyərinin kəskin azalması oldu. Ekspertin fikrincə, bu gün sərfəli qiymətə davamlı paltar tapmaq mümkündür, lakin əşyalar seçərkən bəzi nüansları nəzərə almaq lazımdır, məsələn, tikişlər, parça tərkibi və istehsal edilən ölkə...

Paltarların keyfiyyətini yoxlamağın başqa bir yolunu Parisdəki nüfuzlu "Parsons" moda məktəbinin müəllimi Maks Sanderson təqdim edir. Belə ki, o paltar alarkən məhsulların kənarlarını və tikişlərini diqqətlə yoxlamağı tövsiyə edir.

***Nazlı Babayeva***

# Dünyada ilk: H3N8 insanda aşkarlandı!

***Çində H3N8 quş qripinə insanın ilk yoluxma hadisəsi qeydə alınıb. Trend-in məlumatına görə, bu barədə "BNO News" informasiya agentliyi Çin Milli Səhiyyə Komissiyasına istinadən bildirib.***



Məlumata əsasən, infeksiya Henan əyalətinin Çjumadan şəhərinin dörd yaşlı sakinində təsdiqlənib. Yoluxma aprelin 5-də ev quşları ilə təmas nəticəsində baş verib. Uşağın vəziyyəti pisləşdiyi üçün aprelin 10-da xəstəxanaya yerləşdirilib. Xəstəliyə yoluxanların bütün qohumlarının sağlam olduğu bildirilib. Komissiyanın ilkin qiymətləndirməsinə görə, H3N8 ştammı "hələ insanlara effektiv şəkildə yoluxdurmaq qabiliyyətinə malik deyil", ona görə də genişmiqyaslı epidemiya riski aşağı olaraq qalır.

# Yüksək qızdırma insanı öldürə bilər?




Adətən bədən hərarəti orqanizmə virus və ya bakteriya düşməsinə cavab olaraq qalxır. Lakin qızdırma həmçinin qünvurma, istivurma, zəhərlənmə, allergiya, onkoloji xəstəlik zamanı da qalxa bilər.

Saglamolun.az bildirir ki, qızdırmanın qalxması normal fizioloji prosesdir. Bu orqanizmin müdafiə mexanizmidir. Hərarət qalxdıqda orqanizmdə qan dövranı və mübadilə prosesləri sürətlənir ki, bunun nəticəsində immun sistemi daha fəal şəkildə işləməyə başlayır.

Digər tərəfdən qızdırmanın yüksəlməsi bakteriya və viruslar üçün əlverişli olmayan şərait yaradır - onların yayılması sürəti azalır, onlar daha tez məhv olurlar. Bu səbəbdən həkimlər qızdırmanı yalnız 38,5 C qalxdıqdan sonra salmağı tövsiyə edirlər. Bundan aşağı olan qəzdırmanı salmaq hətta ziyanlı sayılır ki, bu immun sisteminin normal fəaliyyətini pozur, immuniteti zəiflədir.

Qızdırmanın yüksək rəqəmlərə qalxması (40-41,5) orqanizm üçün çox təhlükəlidir. Bu ürək-damar və sinir sistemində çox ciddi pozulmalara (beyin ödeminə və s. qədər) səbəb ola bilər.

Qızdırma 42 C və bundan yuxarı yüksəldikdə orqanizmdə zülalların denaturasiya (qatılaşma) prosesi başlayır ki, nəticədə insan ölür. Xoşbəxtlikdən, bu yalnız çox nadir, istisna hallarda baş verir.

# DİQQƏT: "WhatsApp" fəaliyyətini dayandırır?

İnternet vasitəsilə ünsiyyət qurmağa imkan verən ən məşhur, böyük və geniş yayılmış xidmət "WhatsApp"dır. İnsanlar "WhatsApp"ın köməyi ilə, daxil edilmiş imkanlardan istifadə edərək, asanlıqla səsli zənglər edə, mətn mesajları, müxtəlif növ media faylları göndərə və eyni zamanda bir çox müxtəlif funksiyaları heç bir məhdudiyyət olmadan yerinə yetirə bilirlər. Messencerə giriş demək olar ki, 2009-cu ildən, smartfon istifadəçiləri üçün əlçatan olduqdan bəri, pulsuz təmin edilir.

Lakin son günlər istər sosial şəbəkələrdə, istər yerli və ya xarici mətbuatda "WhatsApp"ın ödənişli şəkildə fəaliyyət göstərəcəyi barədə məlumatlar yayılıb. SİA mövzu ilə İT üzrə mütəxəssis Emin Qasımovun fikirlərini öyrənməyə çalışıb: ""WhatsApp" özlüyündə pullu olmayacaq. Yəni əgər, bir telefonda bir nömrə işlədilirsə, heç bir dəyişiklik olmayacaq. Lakin siz eyni nömrəni bir neçə mobil telefonlara əlavə edəcəksinizsə o zaman ödəniş etməli olacaqsınız. Bu "WebWhatsapp" və s. aid deyil. Yalnız aplikasiya üzərindən eyni nömrəni əlavə etməkdən gedir".




***Arzu Qurbanzadə***

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220